RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 49 (9794) 5 mart 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Birinci vitse-prezident Mehriban Əliyeva Od çərşənbəsi ilə bağlı paylaşım edib





**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Od çərşənbəsi ilə bağlı sosial şəbəkə səhifələrində paylaşım edib.**

AZƏRTAC paylaşımı təqdim edir: "Uca Allah mərhəmətini xalqımızdan heç zaman əsirgəməsin! Od çərşənbəniz mübarək!"

# Müzəffər Ali Baş Komandanın qüdrətli Ordusu



## Azərbaycan əsgərinin Cənubi Qafqazın ən hazırlıqlı hərbçisinə çevrilməsinin iftixarını yaşayırıq

Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu istiqamətdə qarşıya qoyduğu yeni vəzifələrə, tələblərə uyğun olaraq ordumuzun maddi-texniki bazası daha da modernləşir, mütəmadi keçirilən hərbi təlimlər isə Silahlı Qüvvələrin gücünə güc qatır. Hazırda Azərbaycan, Silahlı Qüvvələrinin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından dünyada nümunəvi dövlət kimi qəbul edilir. Həyata keçirilən ordu quruculuğu nəticəsində Azərbaycan Ordusu çevik, peşəkar və müasir tələblərə cavab verə bilən Silahlı Qüvvələr kimi düşmənlərə gözdağı verir. Planlı və ardıcıl şəkildə görülmüş işlər Azərbaycan Silahlı Qüvvələrini dünyanın ən güclü 50 ordusu sırasına yüksəldib.

Azərbaycan İkinci Qarabağ müharibəsi dövründə öz hərbi gücünü bir daha dünyaya nümayiş etdirdi. Müharibədən keçən 4 ildən artıq müddətdə aparılan islahatlar və yeni silahlı birləşmələrin yaradılması, müasir texnika ilə ordumuzun təchiz olunması nəticəsində isə daha da böyük hərbi potensial formalaşdı.

Vətən müharibəsindən sonra ordunun daha da modernləşməsi istiqamətində qarşıya yeni vəzifələr, tələblər qoyulub və bu gün həmin proses uğurla davam etdirilir. Ali Baş Komandan İlham Əliyev tərəfindən Silahlı Qüvvələrin maddi-texniki təchizatının yenilənməsi, müasir infrastrukturun yaradılması, hərbi qulluqçuların sosial müdafiəsi, mənzil təminatının yaxşılaşdırılması, həmçinin müdafiə sənayesinin inkişaf etdirilməsinə daim xüsusi diqqət ayrılır. Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ müasir texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir.

→ 5

## Azərbaycana göstərilən hörmət və həmin ölkələr arasında böyük dostluğun nümunəsi

### Prezident İlham Əliyev D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi İsiaka Abdulqadir İmamı qəbul edib.**

→ 2

## Yeni yaradılan əməkdaşlıq formatının perspektivləri barədə fikir mübadiləsi aparılıb

### Prezident İlham Əliyev "Tatneft", "KazMunayQaz" və "Uzbekneftegaz" şirkətlərinin rəhbərlərini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Rusiyanın "Tatneft" şirkətinin baş direktoru Nail Maqanovu, Qazaxıstanın "KazMunayQaz" şirkətinin İdarə Heyətinin sədri Asxat Xassenovu və Özbəkistanın "Uzbekneftegaz" şirkətinin İdarə Heyətinin sədri Baxodirjon Sidikovu qəbul edib.**

→ 2

## Sülhə qarşı çıxan USAID

### ABŞ-nin yeni administrasiyası tərəfindən fəaliyyəti dayandırılan bu qurum son günlərində Ermənistanın məkrli məqsədlərini maliyyələşdirməyə imkan tapa bilib

USAID iqtisadi və sosial inkişafa yardım adı ilə fəaliyyət göstərsə də, əslində, bu qurum tamamilə fərqli məqsədlərə xidmət edib. Onilliklər boyu yardım adı altında pərdələnərək müstəqil siyasət yürüdən dövlətlərin daxili işlərinə qarışıb, hakimiyyət çevrilişlərinə çalışıb, xaosa yol açan layihələr həyata keçirib, seçkilərə müdaxilə edib. Bu təşkilat ayrı-ayrı ölkələrdə insan mənəviyyatı ilə uzlaşmayan dəyərlərin yayılmasına çalışıb, insan hüquqları adı altında demokratiyaya qarşı çıxıb.




Təkcə 2023-2025-ci illərdə "müxtəlif ölkələrdə vətəndaş cəmiyyəti quruculuğuna dəstək vermək" adı altında USAID 9 milyard dollardan çox vəsait sərf edib. Bu da bir daha onu göstərir ki, bu təşkilat real fəaliyyətini "Vətəndaş cəmiyyətlərinin inkişafına töhfə vermək" adı altında pərdələmiş, əslində isə, bununla müxtəlif ölkələrin daxili işlərinə, orada baş verən siyasi proseslərə müdaxilə etmiş, cəmiyyətlərdə qarşıdurma yaratmağa çalışmışdır. Son olaraq USAID-in Gürcüstanda ötən ilin payızında keçirilən parlament seçkiləri vaxtı həyata keçirdiyi çirkli əməllər bunu təsdiq etdi.

İlon Mask USAID-in xarici yardımlarını "çirkli pulların yuyulması" ilə müqayisə edib, hətta onun bioloji silahların hazırlanmasını da maliyyələşdirdiyini bildirib.

→ 6

## Ermənistan Arazı 59 növ metalla çirkləndirir

Transsərhəd çaylar vasitəsilə Azərbaycan ərazisinə axıdılan tullantılar su mənbələrinin keyfiyyətinin pisləşməsinə, suyun içilməz hala gəlməsinə, kənd təsərrüfatında istifadəsinin mümkünsüzlüyünə, suda və quruda yaşayan heyvanların tələf olmasına, biomüxtəlifliyin azalmasına səbəb olur. Cəmşid Bəxtiyarın sözlərinə görə, Qarabağ və Şərqi Zəngəzurda axan bir çox çay başlanğıcını Ermənistan ərazisindən götürür. Bu çaylardan biri Oxçuçaydır. Başlanğıcını Qərbi Zəngəzurdan götürən çay Zəngilan rayonu ərazisindən keçərək Araz çayına tökülür. Onu da qeyd etmək lazımdır ki, Araz çayı 59 növ ağır metalla yüksək dərəcədə çirkləndirilib. Suyu çirkləndirən əsas elementlər alüminium, arsen, mis, manqan, molibden, qurğuşun və vanadiumdur ki, bunlar da əsasən Ermənistanın dağ-mədən müəssisələrindən qaynaqlanır. Oxçuçay Araz çayının qolu olduğuna görə, Araz hövzəsinin də çirklənməsinə səbəb olur. Nəticə etibarilə Ermənistanda yerləşən sənaye obyektlərinin tullantıları da Araz çayı vasitəsilə Xəzər dənizinin hövzəsinə tökülür.

Başlanğıcını Ermənistanın Vanadzor dağlarından götürən Arpaçay Zəngəzurdan keçərək Naxçıvan Muxtar Respublikasında Araz çayına tökülür. Öz çirkliliyi ilə dəhşət saçan çayın Azərbaycan ərazisindəki su hövzələrinin çirkləndirilməsində ciddi rolu var. Hazırda Şərqi Zəngəzurun əsas hissəsi olan Kəlbəcərdə bu cür təsirlər mümkün deyil.

→ 6



# Azərbaycana göstərilən hörmət və həmin ölkələr arasında böyük dostluğun nümunəsi

## Prezident İlham Əliyev D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibini qəbul edib



Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, ölkəmizin D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olması ilə bağlı qəbul edilən yekdil qərara görə üzv dövlətlərə minnətdarlığını bildirən Prezident İlham Əliyev tamhüquqlu üzv kimi Azərbaycanın bu təsisatın inkişafı ilə bağlı səylərini əsirgəməyəcəyini vurğuladı.

Dövlətimizin başçısı D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı yaranandan bəri ona qoşulan ilk ölkənin Azərbaycan olmasından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev bu qərarı eyni zamanda üzv ölkələr tərəfindən Azərbaycana göstərilən hörmət və həmin ölkələr arasında böyük dostluğun nümunəsi kimi qiymətləndirdi. Dövlətimizin başçısı qeyd etdi ki, D-8 ölkələri ilə Azərbaycanın qarşılıqlı milli maraqlara əsaslanan səmərəli konstruktiv ikitərəfli münasibətləri mövcuddur. Azərbaycanın aidiyyəti qurumları ilə təşkilat arasında əlaqələrin yaradılmasının önəminə toxunan dövlətimizin başçısı onun coğrafiyasının Xəzər dənizi və Qafqaz regionuna genişlənməsinin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev bu xüsusda təşkilatın bölgəyə yaxınlaşmasında regionun mühüm ölkəsi kimi Azərbaycanın rolunu qeyd etdi.

Dövlətimizin başçısı Baş katib İsiaka Abdulqadir İmamın ölkəmizə səfərinin səmərəli olacağına ümidvarlığını ifadə etdi. Qəbula görə minnətdarlığını bildirən D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Azərbaycanın bu təsisata üzv olması və müqəddəs Ramazan ayı münasibətilə təbriklərini çatdırdı. Qonaq eyni zamanda COP29-da Azərbaycanın uğurlu sədrliyi ilə bağlı dövlətimizin başçısını təbrik edərək, ölkəmizin sədrliyi çərçivəsində COP29-da iqlim gündəliyi üzrə ciddi qərarların qəbul olunduğunu vurğuladı.

D-8-in dünyada 1,2 milyard əhalisi olan üzv dövlətləri əhatə edən böyük iqtisadi və ticari potensiala malik təsisat olduğunu deyən Baş katib onun fəaliyyətinin əsasında ölkələr arasında iqtisadi-ticari münasibətlərin inkişafının dayandığını qeyd etdi. Qonaq əminliyini bildirdi ki, Azərbaycan təşkilatın daha da inkişaf etdirilməsinə, gündəlikdə duran məsələlərin həyata keçirilməsinə öz əsaslı töhfəsini verəcək.

Görüşdə D-8 çərçivəsində enerji, iqlim fəaliyyəti, ticarət, kiçik və orta sahibkarlığın inkişafı, gənclər, media və qarşılıqlı maraq doğuran digər istiqamətlərdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Yeni yaradılan əməkdaşlıq formatının perspektivləri barədə fikir mübadiləsi aparılıb

## Prezident İlham Əliyev "Tatneft", "KazMunayQaz" və "Uzbeknefteqaz" şirkətlərinin rəhbərlərini qəbul edib



Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bu gün çoxtərəfli əməkdaşlığın yeni mərhələsinin başlandığını deyərək, bunun üçün hazırlıq işlərinin uğurla aparıldığını vurğuladı. Azərbaycan, Rusiya, Qazaxıstan və Özbəkistanın neft şirkətləri arasında çox sıx istehsalat münasibətlərinin artıq qurulduğunu məmnunluqla qeyd edən Prezident İlham Əliyev ikitərəfli formatda bir sıra layihələrin həyata keçirildiyini dedi, bu xüsusda səyləri birləşdirməyin önəminə toxundu.

Dövlətimizin başçısı birgə istehsal və dost ölkələrə sifarişlərin həyata keçirilməsi baxımından da dördtərəfli əməkdaşlığın rolunu qeyd etdi.

Söhbət zamanı yeni yaradılan əməkdaşlıq formatının perspektivləri barədə fikir mübadiləsi aparıldı, onun ölkələrimiz arasında iqtisadi sahədə əlaqələrin daha da genişlənməsi işinə töhfə verəcəyinə ümidvarlıq ifadə olundu. Vurğulandı ki, bu format çərçivəsində şirkətlər arasında fövqəladə halların aradan qaldırılması və birgə reaksiya qruplarının yaradılması, rəqəmsal texnologiyalar və proqram təminatı sahələrində işlərin optimallaşdırılması, müştərək satınalmaların təşkili, habelə müxtəlif sənaye sahələrinin inkişafı üzrə əməkdaşlıq nəzərdə tutulur.

Qeyd edildi ki, bu yeni əməkdaşlıq formatı digər xarici şirkətlərin qoşulması üçün də açıqdır.

# Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1114-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744, № 12 (I kitab), maddə 1281; Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 122-VIIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 152.8-1-ci maddə əlavə edilsin:

"152.8-1. Üzərinə həbs qoyulmuş əmlakın qanunla müəyyən edilmiş hallarda və qaydada idarə edilməsi ilə əlaqədar tədbirlər görülə bilər.".

**Maddə 2.** Bu Qanun üzərinə həbs qoyulmuş əmlakın yaxşılaşdırılması, satılması, icarəyə və ya idarəetməyə verilməsi qaydaları ilə eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 fevral 2025-ci il*

# Naxçıvan şəhərində ictimai nəqliyyatın tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, iqlim dəyişikliyinə qarşı mübarizə və ekoloji dayanıqlılığın artırılması üçün ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və istifadəsinin genişləndirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan şəhərinin ictimai nəqliyyat sistemində sərnişin daşımalarının yalnız elektrik mühərrikli avtobuslarla təşkili məqsədilə 60 ədəd elektrik mühərrikli avtobusun alınması və enerjidoldurma cihazlarının quraşdırılması, habelə həmin avtobuslara xidmət səviyyəsinin yüksəldilməsi üçün depo (qaraj) infrastrukturunun təkmilləşdirilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanının 1.12.4.4.12-ci abzasında nəzərdə tutulmuş vəsait hesabına nizamnamə kapitalının artırılması yolu ilə "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinə 33.449.000,0 (otuz üç milyon dörd yüz qırx doqquz min) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2025-ci il*

# TBMM Sədri Numan Kurtulmuş Milli Məclisin Sədri Sahibə Qafarovaya zəng edib



Martın 4-də Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Numan Kurtulmuş Milli Məclisin Sədri Sahibə Qafarovaya zəng edərək mübarək Ramazan ayının başlaması münasibətilə təbriklərini çatdırıb. TBMM Sədri bu mübarək ayın qardaş Azərbaycan xalqına və müsəlman dünyasına sülh, əmin-amanlıq və xeyir-bərəkət gətirməsini diləyib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, telefon danışığı zamanı qardaş ölkələrimiz arasında münasibətlər, o cümlədən parlamentlərimiz arasında əməkdaşlıq məsələləri haqqında da fikir mübadiləsi aparılıb, qanunverici orqanlarımızın həm ikitərəfli, həm də beynəlxalq parlament təşkilatlarında yüksək səviyyədə əməkdaşlığından razılıq ifadə olunub.

***"Azərbaycan"***

# F.H.Nağıyevə şiddətli töhmət elan edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri Fuad Hümbət oğlu Nağıyevə işində yol verdiyi nöqsanlara görə şiddətli töhmət elan edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2025-ci il*

# Ceyhun Bayramov D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi ilə görüşüb

Xarici işlər naziri Ceyhun Bayramov İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Baş katibi İsiaka Abdulqadir İmam ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, görüşdə Azərbaycanın D-8-ə üzvlüyündən irəli gələn əməkdaşlıq məsələləri, habelə regional və beynəlxalq təhlükəsizlik vəziyyəti müzakirə olunub. Nazir Ceyhun Bayramov D-8-in ötənilki sammiti çərçivəsində ölkəmizin təşkilata üzv seçilməsinin Azərbaycanın artan regional və beynəlxalq nüfuzunun, habelə təşkilat tərəfindən göstərilən etimadın təcəssümü olduğunu məmnunluqla qeyd edib. Üzvlüyümüzün öz növbəsində D-8-in tarixində ilk genişlənmə olaraq tarixə düşdüyü, öz növbəsində ölkəmizin təmsilçiliyinin, o cümlədən təşkilatın coğrafiyasının genişlənməsində mühüm rol oynadığı qeyd edilib. Azərbaycanın bundan sonra da ikitərəfli əsasda, o cümlədən D-8 çərçivəsində üzv dövlətlərlə əməkdaşlığın gücləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyi qeyd olunub. Tərəflər eyni zamanda D-8 çərçivəsində müxtəlif, o cümlədən siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, kommunikasiyalar, humanitar, təhsil və sair sahələr üzrə əməkdaşlıq üçün geniş potensialın mövcud olduğunu qeyd edərək bu istiqamətdə gələcək planlar üzrə müzakirə aparıblar. Nazir Ceyhun Bayramov həmçinin qarşı tərəfi postmünaqişə dövründə işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri barədə ətraflı məlumatlandırıb. Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində sığorta-pensiya sahəsində islahatlara dair infosessiya keçirilib

## Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə, hamiləliyə, doğuma görə və sair müavinətlərin təyinatı da elektronlaşdırılacaq



Aparılan sosial islahatlar sığorta-pensiya sistemini də əhatə edir və pensiyalarda davamlı artıma imkan yaratmaqla bu sahədə innovativ həllərin geniş tətbiqinə xidmət edir.

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində sığorta-pensiya sahəsində aparılan islahatlara dair keçirilən infosessiyada bildirilib. Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Prezident İlham Əliyevin tapşırıqlarına əsasən son illər reallaşdırılan sosial islahatların pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi sahəsində mühüm addımların atılmasına imkan verdiyini qeyd edib.

Digər istiqamət kimi, 2019-cu ildən pensiya və müavinətlərin, təqaüdlərin proaktiv təyinatı mexanizmlərinin qurulduğu, ötən dövrdə 900 minə yaxın sosial ödəniş təyinatlarının e-sistem üzərindən, proaktiv həyata keçirildiyi diqqətə çatdırılıb.

Ötən il qanunvericilikdə edilmiş dəyişikliklə iki və daha çox pensiya növünə hüququ yaranan şəxslərə müraciət olunmadan, proaktiv qaydada onlardan ən yüksək olan pensiya növünün e-qaydada təyin olunması imkanı yaradıldığı bildirilib. Çoxuşaqlı və əlil uşağı olan şəxslərə erkən pensiya təyinatlarının proaktiv şəkildə həyata keçirilməsi sahəsində aparılan işlər qeyd edilib.

Sosial sığorta əsaslı müavinətlərin (o cümlədən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə, hamiləliyə, doğuma görə və s. müavinətlərin) elektron qaydada təyin edilməsi mexanizminin yaradılacağı da bildirilib.

İnfosessiya zamanı sığorta-pensiya sahəsində son illər aparılan islahatların nəticələri təqdim edilib. Bu sahədə hədəflərdən bəhs olunub, qarşıda duran vəzifələr müzakirə edilib.

# Baş prokuror Beyləqanda vətəndaşların müraciətlərini dinləyib



Martın 4-də baş prokuror Kamran Əliyev Beyləqan Rayon Prokurorluğunun inzibati binasında Beyləqan, Füzuli, İmişli, Sabirabad, Saatlı, Xocavənd, Cəbrayıl rayonları və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla anıb.

Qəbulda iştirak edən 25 vətəndaşın müraciəti üzrə konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Sonra prokurorluq əməkdaşları ilə görüşən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb. Həmçinin prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq, işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# Arzu Əliyeva şəhid anaları ilə birgə iftar məclisində iştirak edib









**Martın 4-də Heydər Əliyev Fondunun dəstəyi ilə müqəddəs Ramazan ayı münasibətilə iftar süfrəsi təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, Arzu Əliyeva iftar məclisində iştirak edib. Ölkəmizin müxtəlif rayonlarından şəhid valideynlərinin, müharibə iştirakçılarının, ictimaiyyət nümayəndələrinin dəvət olunduğu iftar mərasimində "Qurani-Kərim"dən ayələr oxunub, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olan qəhrəman Vətən oğullarının ruhuna dualar edilib.

İftar məclisində çıxış edənlər Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən oğullarının xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı naminə qəhrəmanlıqlarından danışıblar. Çıxışlar zamanı həmçinin dövlətin şəhid ailələrinə, müharibə iştirakçılarına göstərdiyi diqqət və qayğıdan məmnunluq ifadə olunub, bugünkü məclisin də bunun bariz nümunələrindən biri olduğu vurğulanıb.

"Fire Land Group"un "Mənim oğlum qəhrəmandır" layihəsinin Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən budəfəki tədbiri 8 Mart - Beynəlxalq Qadınlar Günü ərəfəsinə təsadüf etdiyindən şəhid analarına hədiyyələr təqdim olunub. Daha sonra tanınmış incəsənət xadimləri də öz ifaları ilə şəhid analarını təbrik ediblər.

Qeyd edək ki, "Mənim atam qəhrəmandır" və "Mənim oğlum qəhrəmandır" layihələri artıq 5 ildir həyata keçirilir. Bu layihələr çərçivəsində Azərbaycanın müxtəlif yerlərində şəhid ailələri ilə birgə tədbirlər təşkil olunur.

# Nizami Kino Mərkəzində "Bir səfərin izi ilə - Böyük Britaniya" filminin təqdimatı olub

## Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva tədbirdə iştirak edib






Martın 4-də Nizami Kino Mərkəzində Ümummilli Lider Heydər Əliyevin Böyük Britaniya Krallığına rəsmi səfərlərinə həsr olunmuş "Bir səfərin izi ilə - Böyük Britaniya" sənədli filminin təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, filmin təqdimatında Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva iştirak edib.

Ekran əsərinin nümayişindən əvvəl çıxış edən layihə rəhbəri, tanınmış səyyah və jurnalist Azər Qərib bildirib ki, tamaşaçıları Ümummilli Lider Heydər Əliyevin səfər etdiyi Böyük Britaniyanın tarixi şəhərləri - London və Edinburqa aparan film rəsmi səfərin qeyri-rəsmi tərəflərini göstərir. O qeyd edib ki, filmdə eyni zamanda Ulu Öndərin Azərbaycanla Böyük Britaniya arasında dostluq əlaqələrinin formalaşmasında oynadığı xüsusi rol barəsində tarixi faktlar təqdim olunur.

Filmin çəkilişləri London və Edinburq şəhərlərində aparılıb. Bu, Ümummilli Lider Heydər Əliyevin səfərlərinə həsr olunmuş "Bir səfərin izi ilə" filmlər toplusundan artıq dördüncü filmdir. Birinci film Ulu Öndərin İtaliya səfərinə, ikinci film Yaponiya səfərinə, üçüncü film Çin səfərinə, dördüncü film isə Böyük Britaniya səfərinə həsr olunub. Layihə çərçivəsində Heydər Əliyevin müxtəlif xarici səfərləri və onların tarixi əhəmiyyəti işıqlandırılır.

"Bir səfərin izi ilə" filmlər toplusu Ulu Öndər Heydər Əliyevin beynəlxalq səviyyədə göstərdiyi fəaliyyəti, Azərbaycanın dünya dövlətləri ilə əlaqələrini gücləndirmək üçün gördüyü işləri və ölkəmizin beynəlxalq nüfuzunu artırmaq üçün atdığı addımları əks etdirir.

İdeya müəllifi Azər Qərib olan filmin yaradıcı heyətinə redaktor Ayaz Mirzəyev, prodüser Əsgər Qəribzadə, operator Əli Əliyev, montaj üzrə mütəxəssis Elmar Tariyeloğlu daxildir.

Film milli aviadaşıyıcı "Azərbaycan Hava Yolları"nın (AZAL), "BP-Azərbaycan" şirkəti və "CinemaPlus" kinoteatrlar şəbəkəsinin dəstəyi ilə ərsəyə gəlib.

# Moskvada Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin abidəsinin təntənəli təməlqoyma mərasimi olub

Moskvada ölkəmizin Rusiyadakı səfirliyinin yaxınlığındakı xiyabanda Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin abidəsinin təməlqoyma mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, xatirə lövhəsində deyilir: "Burada iki dəfə Sosialist Əməyi Qəhrəmanı, görkəmli dövlət və siyasi xadim, Nazirlər Sovetinin Baykal-Amur magistral yolunun tikintisi və inkişafı Komissiyası sədrinin abidəsi ucaldılacaq".

Tədbirdə Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayev, Moskva şəhərinin meri Sergey Sobyanin, Rusiya Baş nazirinin müavini Vitali Savelyev, Baykal-Amur magistralı tikintisinin veteranları, SSRİ Nəqliyyat Nazirliyinin keçmiş əməkdaşları və başqaları iştirak ediblər.

Heydər Əliyev SSRİ Nazirlər Sovetinin Baykal-Amur magistralının tikintisi və inkişafı üzrə Komissiyasının sədri vəzifəsini tutub və bu strateji əhəmiyyətli layihənin inkişafına böyük töhfə verib. Abidənin Moskvada ucaldılması Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Sovet İttifaqı qarşısında, Baykal-Amur magistral xəttinin tikintisində və inkişafında xidmətlərinə verilən qiymətin rəmzidir.

# "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi"




Martın 4-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının və YAP Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" mövzusunda tədbir keçirilib.

Əvvəlcə YAP Yasamal rayon təşkilatının inzibati binasında Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb. Tədbirdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, hər bir xalqın vahid məram və məqsəd ətrafında birləşərək inkişaf yolunu düzgün müəyyənləşdirməsi milli ideologiya ilə sıx bağlıdır: "Azərbaycançılıq müstəqil Azərbaycan dövlətinin və xalqımızın milli ideologiyasıdır. Azərbaycançılıq məfkurəsinin əsasında Azərbaycanı özünə Vətən sayan bütün xalqların bərabərliyi ideyası dayanır. Ulu Öndər Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq ideologiyası vaxtilə dövlətimizə qarşı müxtəlif istiqamətlərdən yönələn təhdidlərin qarşısının alınmasında mühüm amil olub. Bu gün azərbaycançılıq milli dövlət ideologiyası kimi Konstitusiya əsaslarına söykənən, Azərbaycanın müstəqilliyinə, onun hüquqi və demokratik dövlət kimi inkişafına və milli təhlükəsizliyinin qorunmasına xidmət edən dəyərlər sistemidir".

Çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev azərbaycançılıq ideologiyasının müəllifidir: "Ulu Öndər hələ sovet dövründə Azərbaycana rəhbərlik edərkən azərbaycançılıq məfkurəsinin bütün həmvətənlərimiz arasında yayılmasına, bu ideyanın geniş ictimai dəyər qazanmasına çalışıb. Ümummilli Liderimiz 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra bu ideologiyanı daha da gücləndirdi".

A.Rəhimzadə deyib ki, Azərbaycan tarixən müxtəlif millətlərin dinc - yanaşı yaşadığı, tolerantlığın bərqərar olduğu ölkədir. Burada hər bir xalqın nümayəndəsinə bərabər münasibət göstərilir. "Ona görə də Azərbaycan vətəndaşları azərbaycançılıq ideyası ətrafında birləşib. Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası ictimai-siyasi proseslərə, xüsusilə dövlət quruculuğuna da öz müsbət təsirini göstərir", - deyə YAP Veteranlar Şurasının sədri söyləyib.

Bakı Dövlət Universitetinin (BDU) professoru, tarix elmləri doktoru Nuru Məmmədov çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyev azərbaycançılıq ideologiyasını dövlətçilik ideologiyası səviyyəsinə yüksəldib. Azərbaycançılığın xalqımızın milli-tarixi sərvəti olduğunu deyən N.Məmmədovun sözlərinə görə, bu, ilk növbədə vahid və bölünməz Azərbaycanın qorunub saxlanılması və möhkəmləndirilməsinin siyasi-ideoloji əsasıdır. Azərbaycançılığın mahiyyətini müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların üzvi şəkildə vəhdəti təşkil edir: "Azərbaycançılıq ideologiyası Azərbaycanın ərazisində yaşayanların həmrəyliyi ilə məhdudlaşmır. Bu ideologiya həm də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsini, ölkəmizin güclənməsini istəyən insanları birləşdirir. Ona görə də bu məfkurə dünyada yaşayan bütün azərbaycanlıları öz ətrafında cəmləşdirir".

Çıxış edən YAP Veteranlar Şurasının sədr müavini Sədaqət Qəhrəmanova da azərbaycançılıq məfkurəsinin önəmindən bəhs edib. O deyib ki, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası milli-mənəvi dəyərlərin qorunması və təbliği baxımından müstəsna əhəmiyyət kəsb edir: "Ulu Öndərimizin müəyyənləşdirdiyi siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Biz bundan sonra da milli-mənəvi dəyərlərimizi qoruyaraq, adət-ənənələrimizi daim yaşadaraq azərbaycançılıq məfkurəsini qorumalıyıq".

Sonra tədbir interaktiv formada davam edib, gənclərin sualları cavablandırılıb.

Sonda Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

# Azərbaycan, Qazaxıstan və Gürcüstan Orta dəhlizin potensialından daha səmərəli istifadə imkanlarını müzakirə ediblər

Bu gün "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" (TBNM) Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin Bakıda keçirilən tədbirləri çərçivəsində "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov, "Gürcüstan Dəmir Yolu" SC-nin baş direktoru David Peradze və "Qazaxıstan Dəmir Yolları" Milli Şirkəti SC-nin İdarə Heyətinin sədri Nurlan Sauranbayev arasında üçtərəfli görüş olub.



AZƏRTAC xəbər verir ki, görüşdə Çindən Avropa istiqamətində göndərilən konteyner yüklərin təyinat məntəqələrinə vaxtında çatdırılması üçün koordinasiyalı fəaliyyətin qurulması üçün zəruri tədbirlər və beynəlxalq dəhlizlərin fasiləsiz, etibarlı və səmərəli fəaliyyətinin təmin edilməsi məqsədilə Azərbaycan, Qazaxıstan və Gürcüstan arasında yaradılmış "Middle Corridor Multimodal" LTD Birgə Müəssisəsinin fəaliyyətinin təşkili barədə müzakirələr aparılıb. Orta dəhlizin əsas tranzit ölkələrinin dəmir yolu ilə yükdaşımalarda əməkdaşlığının regional əhəmiyyəti, illik yükötürmə gücü 5 milyon tona çatdırılmış Bakı-Tbilisi-Qars dəmiryol xəttinin Şərq-Qərb istiqamətində yük nəqlinə mühüm töhfəsi vurğulanıb.

Tərəflər ötən ilin mart ayında Çinin Sian şəhərində istifadəyə verilmiş Qazaxıstanın nəqliyyat-logistika mərkəzindən ilk konteyner blok-qatarının göndərilməsini sözügedən əməkdaşlığın uğuru kimi qeyd ediblər.

2024-cü ildə Çindən Azərbaycan və Avropa istiqamətində göndərilmiş 287 blok-qatarın qəbul edildiyi, bu il həmin rəqəmin 600-ə çatdırılması üçün işlərin görüldüyü bildirilib. Həmçinin TBNM ilə yüklərin axınının sürətləndirilməsi üçün birgə səylərin əhəmiyyəti, bu əməkdaşlığın Çin-Mərkəzi Asiya-Azərbaycan marşrutunu qlobal müstəvidə yeni səviyyəyə qaldıra biləcəyi xüsusi vurğulanıb.

Tərəflər Orta dəhlizin potensialından daha səmərəli istifadə üçün dəmiryol administrasiyaları arasında müştərək fəaliyyət istiqamətlərinin şaxələndirilməsi nəticəsində yükdaşıma həcminin artırıla biləcəyini qeyd ediblər.

# Milli Olimpiya Komitəsində Dünya Kikboksinq Təşkilatları Assosiasiyasının rəhbərliyi ilə görüş olub





Milli Olimpiya Komitəsində (MOK) Dünya Kikboksinq Təşkilatları Assosiasiyasının (WAKO) prezidenti Roy Beyker və qurumun vitse-prezidenti, Türkiyə Kikboksinq Federasiyasının prezidenti Salim Kayıcı ilə görüş olub.

MOK-dan AZƏRTAC-a verilən məlumata görə, komitənin vitse-prezidenti Çingiz Hüseynzadə Azərbaycanda kikboksinqə böyük maraq olduğunu qeyd edib. Kompleks yarışlarda kikboksinq idman növünün təmsil olunduğunu deyən MOK rəsmisi bu idman növündə kifayət qədər uğurlar qazanıldığını diqqətə çatdırıb.

WAKO-nun prezidenti Roy Beyker əvvəlcə ölkəmizə səfəri barədə məlumat verib. Bakıda kadetlər, yeniyetmələr və gənclər arasında Avropa çempionatının keçirilə biləcəyini söyləyən Beyker bunun üçün danışıqların yüksək səviyyədə davam etdiyini qeyd edib. Çingiz Hüseynzadə Avropa çempionatının Bakıda keçirilməsi ilə bağlı Milli Olimpiya Komitəsinin Kikboksinq Federasiyasına dəstək olacağını bildirib.

Görüşdə MOK-un baş katibi Azər Əliyev kikboksinqə ölkəmizdə diqqət göstərildiyini vurğulayıb, bu idman növü üzrə təmsilçilərimizin Konya-2021 V İslam Həmrəyliyi Oyunlarında qazandıqları uğurlardan danışıb.

WAKO-nun vitse-prezidenti Salim Kayıcı Azərbaycan idmançılarının istər kikboksinq, istərsə də digər döyüş idman növlərində qazandıqları uğurların başqa ölkələrə nümunə olduğunu bildirib.

2027-ci ildə Bakıda kikboksinq üzrə Avropa çempionatının keçirilməsi məsələsinin gündəmdə olduğunu deyən S.Kayıcı bu məsələdə Azərbaycana sona qədər dəstək göstərəcəklərini qeyd edib.

Kikboksinq idman növünün ölkəmizdə populyarlığından danışan Orxan Əliyev isə bu gün ölkəmizdə 200-dən çox klubun qeydiyyatdan keçdiyini və 10 mindən çox idmançının bu idman növü ilə fəal məşğul olduğunu deyib. O qeyd edib ki, 2027-ci ildə Bakının Avropa çempionatına evsahibliyi etməsi və qitənin ən güclü döyüşçülərinin paytaxtımızda toplaşması diqqətləri ölkəmizə cəlb edəcək.

# Azərbaycanın və Qazaxıstanın ali təhsil imkanları müzakirə edilib







Martın 4-də ADA Universitetində "Azərbaycan və Qazaxıstan arasında ali təhsildə əməkdaşlığın genişləndirilməsi" mövzusunda "dəyirmi masa" təşkil edilib.

AZƏRTAC xəbər verir ki, "dəyirmi masa"ya evsahibliyi edən ADA Universitetinin rektoru Hafiz Paşayev rəhbəri olduğu universitetdə çalışan qazaxıstanlı akademik heyətin peşəkarlığını vurğulayaraq gələcəkdə Azərbaycan ilə Qazaxıstan arasında elm və təhsil sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün səylərin davam etdiriləcəyini bildirib.

Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Sayasat Nurbek iki ölkə arasında ali təhsil sahəsində əməkdaşlığı genişləndirmək niyyətində olduğunu diqqətə çatdırıb. Qarşılıqlı akademik və elmi əməkdaşlığın gücləndirilməsinin vacibliyinə toxunan Sayasat Nurbek əlavə edib ki, iki ölkə arasında hazırda təhsil strategiyaları, tərəfdaş universitetlərlə əməkdaşlıq planları və innovativ yanaşmalar üzərində işlər aparılır. Nazir bildirib ki, akademik və tədqiqat sahələrində yeni imkanlar yaratmaq üçün birgə fəaliyyət genişləndirilir.

"Dəyirmi masa"da çıxış edən elm və təhsil naziri Emin Əmrullayev Azərbaycan və Qazaxıstanın təhsil sahəsində oxşar hərəkət modelindən istifadə edəcəyini söyləyib. Azərbaycanla Qazaxıstan arasında təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyinə toxunan nazir Emin Əmrullayev qeyd edib ki, hər iki ölkənin öz milli maraqları mövcuddur və bu maraqlara əsaslanaraq, təhsil sahəsində oxşar hərəkət modelindən istifadəyə qərar verilib. Nazir vurğulayıb ki, əsas məqsəd ali təhsili gücləndirmək və universitetlərimizin davamlı inkişafını təmin etməkdir.

Bakıda ilk dəfə keçiriləcək Qazaxıstan universitetlərinin təhsil sərgisindən söz açan Emin Əmrullayev qeyd edib ki, bu tədbir akademik əməkdaşlıq üçün mühüm bir addımdır. Nazir hər iki ölkənin universitetlərini qarşılıqlı sıx əməkdaşlığa çağırıb.

Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel həm Qazaxıstanda, həm də Azərbaycanda geniş təhsil islahatları aparıldığını vurğulayaraq hər iki ölkənin müvafiq sahədə əməkdaşlığı daha da gücləndirmək niyyətində olduğunu əlavə edib. Daha sonra hər iki ölkənin ali təhsil müəssisələrinin rəhbərləri Azərbaycanın və Qazaxıstanın ali məktəbləri arasındakı mövcud əlaqələrdən, əməkdaşlıq imkanlarından danışıblar.

"Dəyirmi masa" çərçivəsində ölkələr arasında qarşılıqlı ikili diplom proqramlarının effektiv tətbiqi, innovasiya, elmi-tədqiqat və qarşılıqlı mübadilə proqramlarının genişləndirilməsi mövzularında müzakirələr aparılıb.

Müzakirələrdən sonra hər iki ölkədən ümumilikdə 17 universitetin iştirakı ilə 40 qarşılıqlı anlaşma memorandumu imzalanıb.

# Pakistanın Baş naziri Azərbaycanla imzalanmış sazişlərin tezliklə icrası üçün komitə formalaşdırıb

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif bu yaxınlarda Azərbaycana səfəri zamanı imzalanmış anlaşma memorandumlarının və sazişlərin tezliklə həyata keçirilməsini təmin etmək üçün komitə yaradıb.



AZƏRTAC xəbər verir ki, komitəyə Pakistanın Baş nazirinin müavini və xarici işlər naziri senator Məhəmməd İshaq Dar rəhbərlik edəcək. Komitə iki ölkə arasında enerji və infrastruktur sektorlarında sazişlər hazırlayacaq. Pakistanın Baş naziri müvafiq orqanlara Pakistan-Azərbaycan ticarətinin cari həcmini 2 milyard dollara çatdırmaq üçün fəaliyyət planı təqdim etməyi tapşırıb.

İclas iştirakçılarına məlumat verilib ki, Məhəmməd Şahbaz Şərifin Azərbaycana səfəri zamanı birgə biznes-forum keçirilib və iki ölkə arasında 10 saziş, memorandum imzalanıb və mübadilə edilib, bir niyyət protokolu imzalanıb.

Məhəmməd Şahbaz Şərif Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprel ayında Pakistana səfəri ilə bağlı bütün hazırlıq işlərinin başa çatdırılmasını da tapşırıb.

Baş nazir iki ölkə arasında çoxillik dostluq əlaqələrinin olduğunu vurğulayıb.

# Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu regional nəqliyyat bağlantısına yeni üstünlüklər qazandıracaq

Bu gün Bakıda "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası (TBNM BA) Hüquqi Şəxslər Birliyinin ümumi yığıncağının iclası keçirilib.




AZƏRTAC xəbər verir ki, iclasda assosiasiyaya üzv dövlətlərin dəmiryol administrasiyalarının rəhbərləri, nəqliyyat və logistika şirkətlərinin yüksəksəviyyəli rəsmiləri daxil olmaqla ümumilikdə 10 ölkədən nümayəndə heyəti iştirak edib.

Tədbirdə Orta dəhliz kimi tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun regional nəqliyyat bağlantısının əsas arteriyalarından biri kimi yüksəlişdə olduğu qeyd edilib.

Bildirilib ki, TBNM BA-ya üzv dövlətlər arasında sıx əməkdaşlıq çərçivəsində yük əməliyyatlarının idarə olunması üçün kompleks tədbirlər, o cümlədən müasir analitik informasiya sistemlərinə inteqrasiya və yüklərin real vaxt rejimində izlənməsi xidmətlərinin yaradılması həyata keçirilib. Sinqapurun "Global DTC" şirkətinin TBNM üçün "Digital Trade Corridor" multimodal platforması və "Fast Customs" platformasını təqdim etməsi ilə əməliyyatların şəffaflığı artırılıb və nəzarət mexanizmləri gücləndirilib. Bakı-Tbilisi-Qars dəmiryol xəttinin yükötürmə gücünün illik 1 milyon tondan 5 milyon tona çatdırılması və bu xətt üzrə yük əməliyyatlarının bərpa edilməsi xüsusilə qeyd olunub.

Tədbir iştirakçıları bildirib ki, əsas məqsəd yüklərin təhlükəsizliyini təmin etməklə, vahid tarifləri razılaşdırmaqla və yük axınının sürətini artırmaqla daşıma sisteminin səmərəliliyini artırmaqdır ki, bu da bütün tərəfdaşların tələbatını qarşılayacaq. Bu yanaşma Orta dəhliz ölkələrinə uzunmüddətli perspektivdə uğur qazanmağa imkan verəcək. Müzakirələrdən sonra TBNM BA Hüquqi Şəxslər Birliyinin TBNM-in inkişafı üzrə İşçi qrupunun 2025-ci il üçün təsdiqlənmiş tarif dərəcələri barədə məlumatı dinlənilib. Daha sonra Orta dəhlizlə bu il yükdaşıma planı və onun icra planı təsdiqlənib, həmçinin TBNM BA Hüquqi Şəxslər Birliyinin Çinin Sian şəhərində nümayəndəliyinin açılması barədə qərar qəbul olunub.

Sonda iclasın protokolu, "Xəzər dənizi limanları arasında fider bağlantısının təşkili haqqında" və "Fider gəmilərin yüklənməsinin təmin edilməsi haqqında" sazişlərin imzalanması mərasimi olub.

Tədbir işini "Xəzər dənizi vasitəsilə Orta dəhliz" ("Middle Corridor via the Caspian Sea") forumu ilə davam etdirib, dənizlə yükdaşımaların səmərəli təşkili, bu istiqamətdə görülə biləcək işlər barədə fikir mübadiləsi aparılıb.

# Bakıda "Daha ədalətli bir dünya mümkündür" adlı panel müzakirə keçirilib

Bakıda Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsi və "Stratcom Public Forum"un təşkilatçılığı ilə "Daha ədalətli bir dünya mümkündür" adlı panel müzakirə keçirilib.








AZƏRTAC xəbər verir ki, Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə əvvəlcə Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altunun videomüraciəti yayımlanıb. O, videomüraciətdə BMT-nin fəaliyyətindəki problemlərdən danışıb. Bildirib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Dünya beşdən böyükdür" fikri də BMT-də islahata ehtiyacın olduğuna diqqət çəkir. "Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsi olaraq, biz 20 fərqli ölkədə "Stratcom Public Forum" çərçivəsində təşkil edilən tədbirləri dəstəkləyirik. BMT-nin fəaliyyətindəki problemlər dünyada sülhün bərqərar edilməsini mürəkkəbləşdirir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın yanaşması BMT daxilində islahatların aparılmasına dəstək verilməsi yönündədir. Ölkəmizin təşkilatçılığı ilə keçirilən tədbirlər ayrı-ayrı cəmiyyət nümayəndələri arasında dialoqu dəstəkləyir. Bugünkü tədbirin daha ədalətli dünya qurulması istiqamətindəki tədbirlərə təkan verəcəyinə inanırıq", - deyə o qeyd edib.

Türkiyənin Azərbaycandakı səfirliyinin media müşaviri Alptekin Cihangir İşbilir beynəlxalq sistemin qlobal sülhü təmin etməkdə çətinliklərlə qarşılaşdığını vurğulayıb: "Beynəlxalq təşkilatların əsas vəzifəsi qlobal sülhü və təhlükəsizliyi təmin etmək olsa da, elə bir hal yaranıb ki, onlar qarşıdurmaları qızışdırmağa, gərginliyin artmasına xidmət edirlər. Dünya sistemində islahatlara, dəyişikliklərə ehtiyac var. Bu məqsədlə tutarlı tədbirlərin görülməsi son dərəcə zəruridir. Dünya miqyasında sülhə və təhlükəsizliyə töhfə vermək üçün bir sıra qurumlar mövcuddur. Müharibələrin qarşısına sədd çəkmək elə sülhün təminatı mənasına gəlir. Ancaq biz qlobal qurumların bu qırğınları daha da alovlandırdığının şahidi olmaqdayıq. Mən buna çox təəssüf edirəm".

APA Media Group-un baş direktoru Vüsalə Mahirqızı çıxışında ədalətli dünyanın qurulmasında medianın rolundan danışıb: "Təəssüflənirəm ki, bu gün medianın dünyada ədalət üçün çalışdığını söyləməyə çətinlik çəkirəm. Bəzi hallarda medianın işi dünyada ədalətin qurulmasından daha çox, müharibələrin alovlanmasına və informasiya manipulyasiyalarına yol açır".

Türkiyə Maarif Vəqfinin Azərbaycan üzrə təmsilçisi Sərdar Gündoğan Türkiyə ilə Azərbaycan arasında təhsil sahəsindəki əlaqələrdən bəhs edib.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) şöbə müdiri Cavid Vəliyev çıxışında beynəlxalq münasibətlər sistemində dövlətlərin siyasətindən danışıb. Qeyd edib ki, beynəlxalq münasibətlərin kökündə ədalət, hüquq və diplomatiya dayanır. O, bu baxımdan Azərbaycan-Türkiyə əlaqələrini nümunə göstərib.

Milli Müdafiə Universitetinin prorektoru, professor Nurettin Acır çıxışında bildirib ki, beynəlxalq münasibətlərdə haqsızlıqla ən çox türk dövlətləri və islam ölkələri üzləşir. Beynəlxalq münasibətlərdə gücü şərtləndirən amillərdən danışan natiq qeyd edib ki, türk nə qədər güclü olarsa, dünyada da möhkəm sülh olar.

Panellərdən sonra sual-cavab sessiyası olub.

# XVI Beynəlxalq Multikulturalizm Məktəbinə start verilib

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) "Müxtəliflik və bərabərlik: İnklüziv gələcəyin qurulması" mövzusunda XVI Beynəlxalq Multikulturalizm Məktəbinə start verib.

AZƏRTAC xəbər verir ki, məktəb iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə tər güllər düzüblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı ziyarət olunub, xatirəsi ehtiramla anılıb. Sonra Şəhidlər xiyabanı ziyarət edilib, ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi anılıb, məzarları üzərinə tər qərənfillər qoyulub.

Daha sonra məktəb iştirakçıları Quba rayonuna yola düşüblər.

Qeyd edək ki, martın 10-dək davam edəcək məktəb Bakı şəhəri ilə yanaşı, Quba və Qusar rayonlarında da fəaliyyət göstərəcək. XVI Beynəlxalq Multikulturalizm Məktəbində Azərbaycan, Rusiya, Bolqarıstan, Braziliya, Serbiya, Rumıniya, Özbəkistan, Qazaxıstan, Gürcüstan, İraq, Moldova, Türkiyə, Yaponiya, Polşa, Cənubi Koreya, Zimbabve, Çin, Yəmən, Pakistan, Mərakeş və Mozambikdən 25 tələbə iştirak edir.

Məktəbin iştirakçılarına Azərbaycandakı multikultural mühit, tolerant əhvali-ruhiyyə, etnik-dini müxtəliflik, ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, fərqli konfessiyaların dinc - yanaşı yaşaması haqqında ətraflı məlumat veriləcək. İştirakçılar "Azərbaycanda dini müxtəliflik və ənənəvi birgəyaşayış", "Azərbaycan cəmiyyətinin formalaşmasında multikulturalizm faktoru", "Müxtəliflik və Konstitusiya - Azərbaycanda multikultural cəmiyyətin inkişafının aspektləri" mövzularında məruzələr dinləyəcəklər. Məruzələri Azərbaycan İlahiyyat İnstitutunun Dinşünaslıq şöbəsinin müdiri Anar Qafarov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Layihələr şöbəsinin müdiri İrina Kunina, Azərbaycan Dövlət İnformasiya Agentliyinin Hüquq və insan resursları şöbəsinin müdiri Esmira Tağıyeva təqdim edəcəklər. Beynəlxalq Multikulturalizm Məktəbi çərçivəsində "Öz xalqını təqdim et" musiqili axşamlar da təşkil olunacaq. Burada iştirakçı tələbələr öz xalqlarının mədəniyyəti, adət-ənənələri ilə bağlı məlumat verəcəklər.

Quba və Qusar rayonlarında ekskursiyalarda isə iştirakçılar Quba Soyqırımı Memorial Kompleksi, Qırmızı qəsəbə, Dağ Yəhudiləri Muzeyi ilə tanış olacaqlar, Altı günbəz və "Giləki" sinaqoqlarını ziyarət edəcəklər.

Qonaqlar həmçinin Heydər məscidində, Rus Pravoslav Kilsəsində, Dağ Yəhudiləri Sinaqoqunda, Müqəddəs Məryəm Katolik kilsəsində olacaqlar.

İştirakçıların BBMM-in Himayəçilik Şurasının sədri akademik Kamal Abdullayev, BBMM-in icraçı direktoru Rəvan Həsənov, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov ilə görüşləri də planlaşdırılır.




# Konstitusiya və Suverenlik İli 2025



**Qafqazda ən güclü orduya malik ölkə olan Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra da Silahlı Qüvvələrinin daha da modernləşməsi istiqamətində mühüm addımlar atır.**



# Müzəffər Ali Baş Komandanın qüdrətli Ordusu

## Azərbaycan əsgərinin Cənubi Qafqazın ən hazırlıqlı hərbçisinə çevrilməsinin iftixarını yaşayırıq

Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu istiqamətdə qarşıya qoyduğu yeni vəzifələrə, tələblərə uyğun olaraq ordumuzun maddi-texniki bazası daha da modernləşir, mütəmadi keçirilən hərbi təlimlər isə Silahlı Qüvvələrin gücünə güc qatır. Hazırda Azərbaycan, Silahlı Qüvvələrinin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından dünyada nümunəvi dövlət kimi qəbul edilir. Həyata keçirilən ordu quruculuğu nəticəsində Azərbaycan Ordusu çevik, peşəkar və müasir tələblərə cavab verə bilən Silahlı Qüvvələr kimi düşmənlərə gözdağı verir. Planlı və ardıcıl şəkildə görülmüş işlər Azərbaycan Silahlı Qüvvələrini dünyanın ən güclü 50 ordusu sırasına yüksəldib.

Azərbaycan İkinci Qarabağ müharibəsi dövründə öz hərbi gücünü bir daha dünyaya nümayiş etdirdi. Müharibədən keçən 4 ildən artıq müddətdə aparılan islahatlar və yeni silahlı birləşmələrin yaradılması, müasir texnika ilə ordumuzun təchiz olunması nəticəsində isə daha da böyük hərbi potensial formalaşdı.

Vətən müharibəsindən sonra ordunun daha da modernləşməsi istiqamətində qarşıya yeni vəzifələr, tələblər qoyulub və bu gün həmin proses uğurla davam etdirilir. Ali Baş Komandan İlham Əliyev tərəfindən Silahlı Qüvvələrin maddi-texniki təchizatının yenilənməsi, müasir infrastrukturun yaradılması, hərbi qulluqçuların sosial müdafiəsi, mənzil təminatının yaxşılaşdırılması, həmçinin müdafiə sənayesinin inkişaf etdirilməsinə daim xüsusi diqqət ayrılır. Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ müasir texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə 2024-cü ilin yekunlarına dair keçirilən kollegiya iclasında da bu barədə geniş məlumat verilib.

Nazir qeyd edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırıqlarına əsasən, ölkəmizin ərazi bütövlüyünün silahlı müdafiəsi və hərbi təhlükəsizliyinin təmin edilməsi, qoşunların döyüş imkan və qabiliyyətlərinin artırılması, yeni texnologiyalarla hazırlanan müasir silah sistemlərinin Azərbaycan Ordusunun arsenalına qəbul olunması üzrə tədbirlər uğurla davam etdirilir.



Əvvəlki illərdə olduğu kimi, 2024-cü ildə də Ali Baş Komandanın rəhbərliyi altında ordu quruculuğu sahəsində islahatlar inamla icra edilib. 2024-cü ildə səfərbərlik hazırlığına diqqət daha da artırılıb, səfərbərlik ehtiyatlarının keyfiyyətinin yüksəldilməsi istiqamətində ciddi addımlar atılıb. Ötən il ərzində toplanışlara cəlb edilən 10.000-dən artıq müxtəlif ixtisaslı hərbi vəzifəlinin bilik və bacarıqlarının artırılması ilə yanaşı, onlara silahlanmaya yeni qəbul edilmiş silah və texnikadan istifadə qaydaları öyrədilib.

Azərbaycan Ordusunda qoşunların təyin olunmuş normalara uyğun vaxtında bütün növ maddi-texniki vəsaitlərlə təmin edilməsi, şəxsi heyətin keyfiyyətli qidalanmasının təşkili, silahların, zirehli və avtomobil texnikalarının daim döyüş tətbiqinə hazır vəziyyətdə saxlanılması, hərbi hissələrin raket, döyüş sursatları və digər hərbi avadanlıqlarla təmin edildiyi bildirilib.



Şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlər, xüsusilə yüksək dağlıq ərazilərdə yerləşən döyüş mövqelərində ərzaq, əşya, yanacaq və odun ehtiyatının normalara uyğun yaradılması, şəxsi heyətin isti geyimlə tam təmin edilməsi və ümumilikdə maddi-texniki təminat üzrə ötən il ərzində qarşıya qoyulan məqsədlərə nail olunduğu qeyd edilib.

Nazir Zakir Həsənov Azərbaycan Ordusunun xidməti-döyüş fəaliyyətinin, eləcə də ötən ildə qazandığı nailiyyətlərin Ali Baş Komandan tərəfindən yüksək qiymətləndirildiyini bildirib. Hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində beynəlxalq əməkdaşlığın və birgə təlimlərin regionda dayanıqlı sülhə və təhlükəsizliyə böyük töhfə verdiyini qeyd edib.

2025-ci il üzrə planlaşdırılan fəaliyyətlərdən danışan nazir şəxsi heyətin peşəkarlığına və qoşunların döyüş hazırlığına xüsusi diqqət yetirilməsinin, döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsinin, o cümlədən təlimlərin və səhra məşğələlərinin effektivliyinin artırılmasının əhəmiyyətini bir daha vurğulayıb.

Şərti dövlət sərhədində döyüş növbətçiliyinin təşkili, təhlükəsizlik qaydalarının daim diqqət mərkəzində saxlanılması, ayıq-sayıqlığın artırılması, qarşı tərəfin fəaliyyətinin fasiləsiz müşahidəsinin və nəzarətin daha da gücləndirilməsinə dair müvafiq tapşırıqlar verilib.

Hərbi hissələrdə gündəlik xidməti fəaliyyət zamanı yanğın və digər təhlükəsizlik qaydalarına ciddi riayət olunmasına, eləcə də ölkəmizdə qış aylarında havaların soyuq keçməsi ilə əlaqədar mövsümi xarakter daşıyan respirator virus infeksiyalarından qorunmasına xüsusi diqqət yetirilməsinin vacibliyi vurğulanıb.

Müdafiə naziri qış mövsümündə Azərbaycan Ordusunun bölmələrinin təminat məsələlərinə ciddi nəzarət edilməsi, dayaq məntəqələri və döyüş mövqelərində yaradılan bütün növ ehtiyatların daim diqqət mərkəzində saxlanılması, şəxsi heyətin xidməti və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması, eləcə də tibbi təminat məsələlərinə dair aidiyyəti üzrə vəzifəli şəxslərə müvafiq göstərişlər verib.

Prezident Ilham Əliyevin sərəncamına əsasən, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə əlaqədar müdafiə naziri tədbirlərin həyata keçirilməsi, cari ildə bölmələrin döyüş hazırlığına və şəxsi heyətin fərdi peşəkarlığına xüsusi diqqət yetirilməsi, eləcə də cari il ərzində qarşıya qoyulmuş vəzifələrin icrasının yüksək səviyyədə təmin olunması ilə bağlı tələblərini kollegiya iştirakçılarına çatdırıb.

Kollegiya iclasının sonunda müdafiə naziri Azərbaycan Ordusunun bundan sonra da Ali Baş Komandanın və xalqımızın etimadını doğruldacağını əminliklə vurğulayıb.

Bir sözlə, Prezident İlham Əliyevin həyata keçiridiyi islahatlar onu deməyə əsas verir ki, bu gün Silahlı Qüvvələrimiz vahid proqram əsasında inkişaf etdirilir. Prezidentin söylədiyi kimi, görülən işlərə, aparılan islahatların real nəticəsinə əsasən deyə bilərik ki, hazırda Azərbaycan Silahl Qüvvələri müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Ordumuzdan daha da güclüdür. Bu hərbi güc Qafqazın ən güclü Zəfər Ordusudur!

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***





# Hər kəsə qabiliyyətinə görə ləyaqətli iş yeri

## Azərbaycanda əhalinin məşğulluğunu təmin etmək üçün bütün imkanlardan maksimum istifadə edilir

**Keçən il Azərbaycanda 91,7 min yeni iş yeri açılıb. Bu da onu göstərir ki, əhalinin məşğulluq probleminin həlli dövlətimizin prioritetləri sırasında qalmaqda davam edir. İş qabiliyyətli hər bir vətəndaşın əmək fəaliyyəti ilə məşğul olması üçün bütün ehtiyat mənbələrindən istifadə edilir, yeni yollar axtarılır.**

Azərbaycan vətəndaşının əmək hüququ Ana Qanunumuzda ayrıca maddə - 35-ci maddə ilə təsbit olunub. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının "Əmək hüququ" maddəsinin ikinci bəndində deyilir: "Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır". Altıncı bənddə isə hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əməkhaqqı miqdarından az olmayan haqq almaq hüququ olduğu yazılıb.

"Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir". Bu da səkkizinci maddədir.

Bəli, vurğuladığımız kimi, Azərbaycan dövləti bu məqsədlə daim bütün imkanları səfərbər edir. Ölkəmizdə əhalinin məşğulluğunun təmin edilməsi gündəmdən düşməyən, həmişə diqqət mərkəzində olan məsələdir. Bu, Prezident İlham Əliyevin yürütdüyü sosial siyasətin, eləcə də həyata keçirilən sosial islahatların ayrılmaz hissəsini təşkil edir. İki onillikdən çoxdur regionların tarazlı inkişafı bölgələrdə çoxsaylı və müxtəlif təyinatlı müəssisələrin açılmasına imkan verib ki, bu da istər rayon mərkəzlərində, istərsə də kəndlərdə yaşayan insanların öz məşğulluq problemini həll etməsi ilə nəticələnib.

2004-cü ildə regionların sosial-iqtisadi inkişafına yönəldilən Birinci Dövlət Proqramının icrasına start veriləndən üzü bəri bu sahədə ardıcıl tədbirlər həyata keçirilir. Qeyri-neft-qaz sektorunun getdikcə irəliləməsi, iqtisadiyyatın diversifikasiyası və prioritet sahələrə irihəcmli investisiyaların yatırılması qarşıya qoyulan vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsinə, istehsal və emal müəssisələrinin fəaliyyətə başlamasına əlverişli zəmin yaradır.

Sənayeləşmə prosesinin uğurla həyata keçirilməsi sayəsində də xeyli iş yeri açılıb. Bu gün ölkədə fəaliyyət göstərən sənaye parkları və sənaye məhəllələrində yüzlərlə insan çalışır.

İqtisadiyyatın şaxələndirilməsi kənd təsərrüfatı, turizm kimi önəmli sahələrin inkişafına da təkan verib. Prezident İlham Əliyevin uğurlu aqrar siyasəti nəticəsində unudulmuş, tənəzzülə uğramış bir sıra kənd təsərrüfatı sahələri dirçəldilib. Pambıqçılıq, üzümçülük, baramaçılıq, tütünçülük və digər sahələrin inkişafı, eləcə də bir çox emal müəssisələrinin açılmasına səbəb olub. Beləliklə, indi yüzlərlə insan həm aqrar sahənin təsərrüfatlarında, həm də bununla bağlı yaradılan müəssisələrdə çalışaraq məşğulluğunu təmin edib.

Əhalinin işlə təmin olunmasında özünüməşğulluğun özünəməxsus yeri var. Bu, əlverişli qazanc formasıdır. Belə ki, hər ailənin öz büdcəsi olur və bunun sayəsində insanlar iş qura bilirlər. Əlbəttə, dövlətin köməyi ilə. Bu, insanların dolanışığını yaxşılaşdırır, iqtisadi inkişafa təkan verir.

Məşğulluğun həlli yollarından biri də ictimai iş yerlərinin yaradılmasıdır. Prezident İlham Əliyevin tapşırığı ilə bu proqramların icrası zamanı şəhid ailəsi üzvlərinə və qazilərə üstünlük verilir.

Dövlətimizin başçısı yeni iş yerlərinin açılmasının vacib məsələ olduğunu öz çıxışlarında dəfələrlə vurğulayıb. Məsələn, hələ 2019-cu ilin əvvəlində, regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunmuş konfransda Prezidentimiz deyib: "Son 15 il ərzində Azərbaycanda 2 milyon yeni iş yeri yaradılıb. Əhalinin sayı isə 1,6 milyon artıb. Bu da çox gözəl göstəricidir. Əhali nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər". Həmçinin qeyd edib: "Əlbəttə, biz bundan sonra da işimizi elə görməliyik ki, iqtisadi inkişaf, iş yerlərinin yaradılması əhalinin artımından daha da sürətlə getsin, artan əhali işlə təmin olunsun. Yeni iş yerlərinin yaradılması regionların sosial-iqtisadi inkişafı proqramlarının tərkib hissəsi idi və qeyd etdiyim kimi, 2 milyon iş yeri yaradılıb. Bu iş yerlərinin böyük hissəsi bölgələrin payına düşür".

Proses sonra da davam edib, yenə də davamlı xarakter daşıyır. Keçən il iş yerlərinin 13 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, 85,9 faizi mövcud müəssisə və təşkilatlarda, 0,4 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 0,7 faizi isə digər tədbirlər üzrə yaradılıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu dövrdə yaradılmış iş yerlərinin 91,6 faizi qeyri-dövlət sektorunda açılıb. Yeni açılmış iş yerlərinin 75,2 faizi paytaxtımızın, 2,4 faizi Naxçıvan Muxtar Respublikasının, 22,4 faizi digər regionların payına düşüb.



Qeyd edək ki, Qarabağa və Şərqi Zəngəzura - doğma yurd-yuvasına dönən insanların məşğulluğunun həlli üçün də önəmli addımlar atılır. Onları təkcə təzə evlər deyil, həm də sənaye paklarında, digər sənaye müəssisələrində, xidmət obyektlərində, təhsil, turizm sahəsində açılan yeni iş yerləri gözləyir. İşğaldan azad edilmiş ərazilərimizdə 2024-cü ilin yanvar-sentyabr aylarında 1532 yeni iş yeri açılıb ki, bu da ondan əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 55 faiz artım deməkdir. Ən çox yeni iş yeri Laçın, Şuşa və Xankəndidə açılıb ki, bu da müvafiq olaraq 409, 324 və 209 iş yeridir. Yeni iş yerlərinin sayı durmadan artır.

Ümumiyyətlə, keçən il ölkəmizdə hüquqi şəxslər tərəfindən yaradılmış iş yerlərinin 24,1 faizi tikinti, 17,4 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 10,5 faizi emal sənayesi, 8,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 7,2 faizi peşə, elmi və texniki fəaliyyət, 6 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,5 faizi təhsil, 3,9 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 3,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 2,3 faizi informasiya və rabitə, 8,9 faizi isə digər iqtisadi fəaliyyət növləri üzrə açılıb. Bu da təsdiqləyir ki, hər kəs Konstitusiyamızda qeyd edildiyi kimi, əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçə bilər".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## "Aİ-nin missiyası indiyədək sülhə heç bir töhfə verməyib"

### Ermənilər təxribat törədəndə bu qurumun üzvləri ortalıqda görünməyib



"Müəyyən beynəlxalq dairələr Cənubi Qafqazda öz maraqlarını təmin etmək üçün Ermənistandan alət kimi istifadə edirlər. Mülki missiya adı ilə hərbi-kəşfiyyat qrupunun bu ölkənin ərazisində mövcudluğu da sözügedən məqsədlər sırasındadır".

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. O bildirib ki, son iki ildə Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının (EUMA) gerçək məqsədinin sülhə töhfə vermək olmadığı sübut olunub.

Deputat bildirib ki, Aİ-nin missiyası indiyədək nə sülhə töhfə verib, nə də şərti sərhəddə Ermənistanın hərbi təxribatlarının qarşını ala bilib. Missiya üzvləri ötən dövrdə yalnız binoklla sərhəddən Azərbaycana baxmaqla kifayətlənib, hərdən bir sıra ölkələrdən gələn rəsmilər, eləcə də diplomatlarla birlikdə Azərbaycan ərazilərini seyr etməklə məşğul olublar. Bu müddətdə erməni tərəfi bir sıra hərbi təxribatlar törədib ki, Aİ missiyası o zaman ortalıqda görünməyib. Yəni onlar erməni təxribatının qarşısını almaq üçün heç bir addım atmayıblar. "Missiyanın üzvlərinin sayı artırılaraq 200 nəfəri ötüb. Bu da Qərbin müəyyən maraqlarının göstəricisidir.  Bütün bunların fonunda Avropa İttifaqı missiyanın fəaliyyətinin 2027-ci il fevralın 19-dək uzadılması barədə razılıq əldə edib. "Müşahidə missiyası"na bu dövr üçün 44 milyon avrodan çox büdcə ayrılıb", - deyə siyasətçi əlavə edib.

Deputatın sözlərinə görə, missiya üzvlərinin son zamanlar şərti sərhəddə tez-tez görünmələri, Azərbaycan tərəfini müşahidə etmələri bir sıra məqamlardan xəbər verir. Bununla Aİ missiyası şərti sərhəddə "fəal iş apardıqları" görüntüsü yaratmağa çalışır. Nəzərə alaq ki, Aİ-nin missiyasının müddəti və tərkibi Azərbaycanın razılığı olmadan artırılır. Ermənistan anlamalıdır ki, bu missiyanın fəaliyyəti sülh prosesinə zərər verir. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, üçüncü qüvvənin iki ölkənin sərhədində olması vəziyyətin gərginləşdirilməsinə, Avropa İttifaqının bütövlükdə Cənubi Qafqazda hərbi amil kimi meydana çıxmasına xidmət edir. Bu ilin əvvəlində Ermənistanın bir neçə istiqamətdə atəşkəsi pozması da sülh gündəliyi ilə bağlı bu ölkənin radikal mövqeyinin göstəricisidir.

S.Fətəliyeva vurğulayıb ki, Ermənistan bu cür təxribat və gərginliklər yaratmaqla Aİ missiyasına ehtiyacın olması görüntüsünü formalaşdırmaq istəyir: "Yəni Ermənistan sülh istiqamətində addım atmaq əvəzinə kənar qüvvələrin regionda balansı pozmasına şərait yaradır. Missiyanın 2027-ci il fevralın 19-dək regionda qalması Ermənistana heç nə qazandırmayacaq. İrəvan bu missiyaya "təhlükəsizlik çətiri" kimi baxsa da, əslində, bu, Ermənistanın özü üçün yeni təhlükə mənbəyidir. Çünki bu missiyanın sülh prosesində heç bir rolu yoxdur. Həm də Aİ missiyadan Ermənistana təsir vasitəsi kimi istifadə edir".

Deputat bildirib ki, sözügedən missiya regional sabitlik, habelə tərəflər arasında etimad quruculuğuna töhfə vermək kimi bəyan edilmiş məqsədlərinə zidd olaraq, Azərbaycan əleyhinə təbliğat vasitəsinə çevrilib. Missiyanın mahiyyət etibarilə müxtəlif Avropa rəsmilərinin, habelə qeyri-rəsmi nümayəndə heyətlərinin sərhəd bölgələrinə səfərlərinin təşkilinə hesablanmış "binokl diplomatiyası"nın agentinə çevrildiyi Aİ tərəfinin diqqətinə çatdırılıb.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Sülhə qarşı çıxan USAID

### ABŞ-nin yeni administrasiyası tərəfindən fəaliyyəti dayandırılan bu qurum son günlərində Ermənistanın məkrli məqsədlərini maliyyələşdirməyə imkan tapa bilib




**Son** həftələrdə ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) ətrafında baş verənlər yalnız bu ölkənin deyil, bütün dünyanın gündəmini zəbt etdi. Çünki amerikalı milyarder İlon Maskın rəhbərlik etdiyi Hökumətin Səmərəliliyinin Artırılması Departamentinin (DOGE) açıqladığı faktlar USAID-in inkişaf adı altında cinayətkar fəaliyyətlə məşğul olduğunu ortaya qoydu.

### Pərdələnmiş niyyətlər

USAID iqtisadi və sosial inkişafa yardım adı ilə fəaliyyət göstərsə də, əslində, bu qurum tamamilə fərqli məqsədlərə xidmət edib. Onilliklər boyu yardım adı altında pərdələnərək müstəqil siyasət yürüdən dövlətlərin daxili işlərinə qarışıb, hakimiyyət çevrilişlərinə çalışıb, xaosa yol açan layihələr həyata keçirib, seçkilərə müdaxilə edib. Bu təşkilat ayrı-ayrı ölkələrdə insan mənəviyyatı ilə uzlaşmayan dəyərlərin yayılmasına çalışıb, insan hüquqları adı altında demokratiyaya qarşı çıxıb.

Təkcə 2023-2025-ci illərdə "müxtəlif ölkələrdə vətəndaş cəmiyyəti quruculuğuna dəstək vermək" adı altında USAID 9 milyard dollardan çox vəsait sərf edib. Bu da bir daha onu göstərir ki, bu təşkilat real fəaliyyətini "Vətəndaş cəmiyyətlərinin inkişafına töhfə vermək" adı altında pərdələmiş, əslində isə bununla müxtəlif ölkələrin daxili işlərinə, orda baş verən siyasi proseslərə müdaxilə etmiş, cəmiyyətlərdə qarşıdurma yaratmağa çalışmışdır. Son olaraq USAID-in Gürcüstanda ötən ilin payızında keçirilən parlament seçkiləri vaxtı həyata keçirdiyi çirkli əməllər bunu təsdiq etdi.

İlon Mask USAID-in xarici yardımlarını "çirkli pulların yuyulması" ilə müqayisə edib, hətta onun bioloji silahların hazırlanmasını da maliyyələşdirdiyini bildirib. "USAID-in sizin vergi pullarınızdan istifadə edərək milyonlarla insanın ölümünə səbəb olan COVID-19 da daxil olmaqla bioloji silahların inkişafını maliyyələşdirdiyini bilirdinizmi?", - deyə o, sosial şəbəkə hesabında yazıb.

USAID-in riyakar və məkrli əməlləri ilə bağlı ABŞ-də səslənən fikirlər Azərbaycan kütləvi-informasiya vasitələri tərəfindən uzun illərdir ki, işıqlandırılır. Ayrı-ayrı ölkələrdə USAID-in iştirakı ilə ortaya çıxan problemlər müxtəlif formalarda Azərbaycanda da yaşanıb. USAID maliyyə vəsaiti ayırdığı, dəstəklədiyi təşkilatlar vasitəsilə təmsil etdiyi siyasi mərkəzlərin maraqları naminə respublikamızda da pozuculuq fəaliyyəti həyata keçirməyə çalışıb. Azərbaycanın torpaqlarını işğaldan azad etməsindən sonra isə bu təşkilat ölkəmizə qarşı yeni məkrli planlar işə salıb, o cümlədən xalqımızın ən böyük üstünlüklərindən biri olan ailə və milli dəyərlərini hədəfə alıb. Lakin bizə yaxın coğrafiyalarda baş tutan, bəzi dövlətləri asılı vəziyyətə salan, xalqlarına isə ağrı-acıdan başqa heç nə gətirməyən rəngli inqilablar, pozuculuq, konstitusion quruluşu dəyişmək cəhdləri Azərbaycanda həmişə fiaskoya uğradılıb.

### Ermənipərəst fəaliyyətin son akkordu

USAID öz məkrli məramından irəli gələrək Ermənistanı həmişə himayə edib. Digər ölkələrdən fərqli olaraq, USAID Ermənistanda xaosa və ya cəmiyyəti parçalamağa çalışmayıb, əksinə, bu ölkənin təcavüzkar siyasətinə hərtərəfli formada dəstək verib. USAID-ə uzun müddət rəhbərlik etmiş Samanta Pauer də ermənipərəst olması və anti-Azərbaycan mövqeyi ilə tanınırdı.

Bayden-Blinken administrasiyası dönəmində isə USAID-in Ermənistana ayırdığı maliyyə vəsaitinin həcmi daha da artırılıb.  Son olaraq 2024-cü ilin sentyabrında baş nazirin müavini Mher Qriqoryan və USAID-in Ermənistandakı missiyasının rəhbəri Con Allelo İrəvan və Vaşinqton arasında qrant sazişinə düzəlişlər barədə sənəd imzalayıblar. Bunun da nəticəsində USAID tərəfindən Ermənistana ayrılan məbləğ iki dəfədən çox artırılaraq 120 milyon dollardan 250 milyon dollara çatdırılıb. Bu vəsaitin Ermənistanın iqtisadi və ya sosial inkişafına yönəldilməsi deyilsə də, revanşist meyilli bu ölkəyə imkan verirdi ki, bunun sayəsində öz büdcəsində həmin sahələrə vəsait ayırmasın, qənaət etsin və hücum xarakterli silahlanmaya daha çox pul ayırsın.

Sözügedən 250 milyon dolların 110 milyonu artıq Ermənistana köçürülüb.  Belə ki, ABŞ-nin yeni administrasiyası tərəfindən fəaliyyətinin dayandırılmasından və vəsaitlərinin dondurulmasından əvvəl USAID Ermənistanın məkrli məqsədlərinin maliyyələşdirilməsi üçün bu ölkəyə 110 milyon dollar köçürməyə imkan tapıb.  Bu, layihələri və maliyyələşdirilməsi dayandırılmış USAID-in ermənipərəst fəaliyyətinin son akkordu oldu.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## Fransa beynəlxalq ictimaiyyəti yanlış məlumatlandırmağa davam edir

"Təəssüflər olsun ki, Fransa rəsmiləri Azərbaycanı  olmayan məsələdə günahlandırmaq siyasətini davam etdirirlər. Fransanın dənizaşırı ərazilər naziri Yeni Kaledoniyaya səfəri çərçivəsində Azərbaycanı guya dənizaşırı ərazilərə hansısa formada müdaxilə etməkdə, ümumilikdə Fransanın daxili işlərinə qarışmaqda ittiham edir".



Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Arzuxan Əlizadə deyib. O bildirib ki, bundan əvvəl də istər Fransanın xarici işlər naziri, istərsə də digər rəsmiləri tərəfindən analoji iddialara şahidlik etmişik. Əslində isə Azərbaycanı bu məsələdə günahlandırmaq hər bir halda absurddur. 2023-cü ildə Bakı Təşəbbüs Qrupu yaradılıb və onun əsas hədəfi Fransanın yürütdüyü müstəmləkə siyasəti və dənizaşırı ərazilərdəki problemləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaqdır. "Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən məsələyə bu kontekstdə cavab verilib. Məsələnin digər tərəfi isə Fransanın mövcud hakimiyyəti dönəmində Azərbaycana qarşı olduqca xoşagəlməz mövqe sərgiləməsi, Qarabağ və ətraf rayonların işğal altında olduğu dönəmdə bu siyasəti davam etdirməsidir. Azərbaycan torpaqlarını işğaldan azad etdikdən və suverenliyini tam bərpa etdikdən sonra isə Paris bu siyasəti bir qədər də gücləndirib. Zamanında separatçılara dəstək verilirdisə, bu gün də  yenidən hakimiyyətdə olan qüvvələr dəstəklənməklə Ermənistanın silahlandırılması  faktiki olaraq bölgədə sülhə və sabitliyə təhdid yaradır", - deyə deputat əlavə edib.

Deputat qeyd edib ki, bu gün Azərbaycan və Ermənistan şərti sərhədində bizim razılığımız olmadan Avropa İttifaqının "mülki müşahidə" missiyası Azərbaycana yönəlik yanlış məlumatlar tirajlamaqla beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışır. Həmçinin kəşfiyyat xarakterli fəaliyyətlə bölgədə sülhə və sabitliyə çox ciddi maneə törədilir. Fransa və digər ölkələr tərəfindən Ermənistanın silahlandırılması regionda növbəti hərbi eskalasiyaya gətirib çıxara bilər. Fransa bundan çəkinməlidir. Fransanın atdığı addımlar hansısa formada beynəlxalq ictimaiyyətin diqqətini yayındırmaq,  pərdələnmək  məqsədi daşıyır. Bu ölkə tərəfindən Azərbaycana qarşı əsassız ittihamlar irəli sürülür, böhtanlar atılır. Bunlar heç bir halda qəbul edilə bilməz. Zaman-zaman bu mövqeyin yanlış olması ilə bağlı Azərbaycan qarşı tərəfə fikirlərini bildirib. Fransaya həm də tövsiyə olunub ki , bölgədə hazırda mövcud olan sülhə doğru istiqamətlənmiş prosesə maneə yaratmasın. A.Əlizadə vurğulayıb ki, Fransa Azərbaycana qarşı yürütdüyü çirkin siyasəti hansısa formada ört-basdır etmək cəhdlərindən əl çəkməlidir.

*Ə.QABİLQIZI,*
*"Azərbaycan"*



## Ermənistan Arazı 59 növ metalla çirkləndirir

**E**rmənistanın 30 ilə yaxın işğal altında saxladığı torpaqlarımızda ərazilər yandırılıb, su resursları çirkləndirilib, bioloji müxtəlifliyə ciddi zərər vurulub. Düşmənin yeraltı və yerüstü su ehtiyatları ilə zəngin Azərbaycan ərazilərində törətdiyi ekoloji terrorun miqyası olduqca böyükdür.

Qarabağ və Şərqi Zəngəzurda mövcud olan su resursları ümumi su resurslarımızın 25 faizini təşkil edir. Bu su mənbələrinin zəhərli kimyəvi maddələr və sənaye tullantıları ilə çirkləndirilməsi beynəlxalq cinayətdir.

### Ekoloji terroru göstərən interaktiv xəritə

Düşmən əsarətindən azad olunmuş ərazilərimizdəki su resurslarının təmizlənməsi, su infrastrukturunun tamamilə yenidən qurulması prosesinə başlanılıb. "Environmental Protection First" (EPF) Koalisiyası tərəfindən Cənubi Qafqazın və Xəzər dənizinin ekologiyasını zəhərləyən Ermənistanın dağ-mədən sənayesi müəssisələri barədə interaktiv rəqəmsal xəritə hazırlanıb. İnteraktiv xəritədə faydalı qazıntıların növləri, yerləşdiyi ərazilər, əsas çirkləndirici müəssisələr, onların hansı maddələrlə hansı çayları çirkləndirməsi barədə məlumatlar təqdim olunur.

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən ekoloq Cəmşid Bəxtiyar bildirib ki, Ermənistanın Azərbaycan ərazisindəki su hövzələrini çirkləndirməsi yeni fakt deyil: "Düşmən xislətinə uyğun olaraq, uzun illər işğal altında olan ərazilərimizdə qeyri-qanuni istismar etdikləri faydalı qazıntı yataqlarının ətrafından axan çayların çirkləndirilməsi fəaliyyəti ilə məşğul olub. Torpaqlarımız işğaldan azad edildikdən sonra da Azərbaycan ərazisindəki su hövzələrinin çirkləndirilməsi transsərhəd çaylar vasitəsilə davam etdirilib".



Transsərhəd çayların çirkləndirilməsində Ermənistan ərazisində yerləşən Zəngəzur Mis-Molibden kombinatı və Alaverdi Misəritmə zavodu kimi sənaye müəssisələrinin rolunun olduğunu qeyd edən ekoloq deyib ki, onların tullantıları əsasən ağır metallar, mis-molibden və arsen kimi zərərli maddələrdir. Mütəxəssisin sözlərinə görə, digər istiqamətdə axan çaylarda da ekoloji terroru müşahidə etmək mümkündür. Məsələn, Gürcüstan ərazisindən axan, Kürün sağ qolu olan Ağstafaçayın hövzəsi də Alaverdi Misəritmə zavodunun fəaliyyətindən qaynaqlanan ağır metallarla çirkləndirilir. Ermənistana aid məişət tullantıları düzgün idarə olunmadığına görə, utilizasiya sistemindəki çatışmazlıqlarla əlaqəli olaraq, Ağstafaçaya axıdılır.

### Suyu çirkləndirən əsas elementlər alüminium, arsen, mis-molibden və qurğuşundur

Transsərhəd çaylar vasitəsilə Azərbaycan ərazisinə axıdılan tullantılar su mənbələrinin keyfiyyətinin pisləşməsinə, suyun içilməz hala gəlməsinə, kənd təsərrüfatında istifadəsinin mümkünsüzlüyünə, suda və quruda yaşayan heyvanların tələf olmasına, biomüxtəlifliyin azalmasına səbəb olur. Cəmşid Bəxtiyarın sözlərinə görə, Qarabağ və Şərqi Zəngəzurda axan bir çox çay başlanğıcını Ermənistan ərazisindən götürür. Bu çaylardan biri Oxçuçaydır. Başlanğıcını Qərbi Zəngəzurdan götürən çay Zəngilan rayonu ərazisindən keçərək Araz çayına tökülür. Onu da qeyd etmək lazımdır ki, Araz çayı 59 növ ağır metalla yüksək dərəcədə çirkləndirilib. Suyu çirkləndirən əsas elementlər alüminium, arsen, mis, manqan, molibden, qurğuşun və vanadiumdur ki, bunlar da əsasən Ermənistanın dağ-mədən müəssisələrindən qaynaqlanır. Oxçuçay Araz çayının qolu olduğuna görə, Araz hövzəsinin də çirklənməsinə səbəb olur. Nəticə etibarilə Ermənistanda yerləşən sənaye obyektlərinin tullantıları da Araz çayı vasitəsilə Xəzər dənizinin hövzəsinə tökülür.

Başlanğıcını Ermənistanın Vanadzor dağlarından götürən Arpaçay Zəngəzurdan keçərək Naxçıvan Muxtar Respublikasında Araz çayına tökülür. Öz çirkliliyi ilə dəhşət saçan çayın Azərbaycan ərazisindəki su hövzələrinin çirkləndirilməsində ciddi rolu var. Hazırda Şərqi Zəngəzurun əsas hissəsi olan Kəlbəcərdə bu cür təsirlər mümkün deyil. Belə ki, bu ərazidə yerləşən Tərtərçay, Qamışlıçay və Levçay çayları başlanğıcını Azərbaycan ərazisindən götürür. Amma işğal dövründə, ermənilərin Zod qızıl yatağının  və Civə zavodunun istismarı ilə  məşğul olduğu zaman zərərli tullantılar bu çaylara axıdılırdı. Azad olunmuş su anbarları, çaylar və yeraltı mənbələr işğal müddətində kifayət qədər ciddi ekoloji təcavüzə məruz qalıb", - deyə ekoloq bildirib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## "Ermənistan kommunikasiyaların açılması ilə bağlı öhdəliklərinin olduğunu bilsə də, onları indiyədək yerinə yetirməyib"

"Otuz ilə yaxın müddətdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazilərini işğal altında saxlamış, Azərbaycanın Naxçıvan Muxtar Respublikasının blokadaya düşməsinə səbəb olmuş Ermənistanın 44 günlük Vətən müharibəsindən sonrakı 4 ildə də kommunikasiyaların açılması üzrə real danışıqlar prosesinə müsbət töhfə vermədiyi hər kəsə məlumdur".

AZƏRTAC xəbər verir ki, bu sözlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin "Armenpress" xəbər agentliyində Ermənistanın baş nazirinin kommunikasiyalara dair dərc olunmuş məqaləsi ilə bağlı yerli medianın sualına cavabında yer alıb. Mətbuat katibi bildirib ki, Azərbaycanın qərb bölgələrini Naxçıvanla birləşdirən kommunikasiyaların açılması məsələsi ilə bağlı Ermənistan yazılı təsbit olunmuş və imzalanmış öhdəliklərinin mövcud olduğunu bilsə də, onları indiyədək yerinə yetirməyib. Ümumilikdə Ermənistanın mahiyyətcə əhəmiyyəti olmayan, icrası çətin və praktiki cəhətdən uzun marşrutlar üzrə təkliflər irəli sürməsi diqqəti prosesdən və öhdəliklərindən yayındırmaq məqsədi daşıyır.

Əgər Ermənistan tərəfi həqiqətən də bölgədə kommunikasiyaların açılmasında maraqlıdırsa, öhdəliklərindən boyun qaçırmamalı və bölgədəki yeni reallıqlara uyğun şəkildə kommunikasiyaların açılması istiqamətində praktiki addımlar atmalıdır.

## Qərbi Azərbaycan İcması BMT-nin İnsan hüquqları üzrə ali komissarının səsləndirdiyi qərəzli fikirləri qınayıb

"Qərbi Azərbaycan İcması (QAİ) BMT-nin İnsan hüquqları üzrə ali komissarı Volker Türk tərəfindən BMT-nin İnsan Hüquqları Şurasında səsləndirilmiş qərəzli fikirləri qınayır".

AZƏRTAC xəbər verir ki, bu barədə icmanın bəyanatında bildirilib.

Bəyanatda həmçinin qeyd olunub: "Biz ali komissardan Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının ağır fəsadlarını, o cümlədən dini-mədəni irsin dağıdılmasını və mina terrorunu pisləməsini, Ermənistanı itkin düşmüş 4 minə qədər azərbaycanlının taleyinin müəyyənləşdirilməsi üçün ölkəmizlə səmimi əməkdaşlığa dəvət etməsini gözləyirdik.

Ali komissar Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın bu yaxınlarda yayılmış və azərbaycanlıların deportasiya edilməsi yolu ilə monoetnik dövlətin yaradılmasını hədəfləyən irqçi çıxışını, İrəvanda qədim məscidin qalıqları üstündə restoran tikilməsini, Ermənistanda zaman-zaman revanşist fikirlərin səslənməsini də pisləmədi.

Biz ali komissardan Ermənistanı öz dədə-baba yurdlarına dinc yolla qayıdış uğrunda mübarizə aparan qərbi azərbaycanlılarla dialoqa başlamağa çağırmasını gözləyirdik. Lakin ali komissar bunların heç birini etmədi. Əksinə, Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə qarşı fəaliyyət göstərdi, Xocalı soyqırımını törətmiş hərbi canilərin azad olunmasına çağırış etdi. Ali komissarın bu çağırışı faktiki olaraq cəzasızlığı təşviq etmək anlamına gəlir.

Ali komissarı beynəlxalq hüquqa, beynəlxalq humanitar hüquqa, beynəlxalq insan hüquqları hüququna selektiv yanaşmamağa və suveren dövlətin məhkəmə sisteminin işinə müdaxilə etməməyə çağırırıq".

## Ermənistan işğalçılıq niyyətindən əl çəkib sülh üçün real addımlar atmalıdır

Gözlənildiyi kimi, İkinci Qarabağ müharibəsi Azərbaycanın böyük Zəfəri ilə başa çatdı. Döyüşlər zamanı Ermənistan silahlı qüvvələri darmadağın edildi, 30 ilə yaxın davam edən erməni işğalına son qoyuldu. Bundan sonra regionda etibarlı, davamlı sülh yaratmaq üçün qalib ölkə kimi Azərbaycanın diktə etdiyi şərtlər əsasında Ermənistanla sülh sazişinin imzalanması istiqamətində danışıqlar başladı.




Amma təəssüflər olsun ki, Ermənistan müxtəlif əsassız bəhanələrlə danışıqlar prosesini uzadır. İki ölkə arasında sülh sazişinin imzalanmasına əsas əngəl yaradan Ermənistanın Azərbaycanın irəli sürdüyü bəzi şərtlərə əməl etməməsidir. Rəsmi Bakının əsas şərtlərindən biri Ermənistan konstitusiyasında zəruri dəyişikliklərin edilməsidir. Rəsmi İrəvan isə bu dəyişikliyi etmək istəmir.

Konstitusiya hər hansı bir ictimai-siyasi və dövlət quruluşu haqqında beynəlxalq aləmdə ətraflı təsəvvür yaradan əsas sənəddir. Bir növ həmin ölkənin güzgüsüdür, kimliyidir. Ölkələrin konstitusiyası ilə tanışlıq həmin dövlətlər haqqında insanlarda ya müsbət, ya da mənfi təsəvvür formalaşdırır. Ermənistan konstitusiyası başqa ölkələrin Əsas Qanunundan qonşu ölkələrin ərazilərinə iddialarla fərqlənir. Ermənistanın konstitusiyasında birbaşa olmasa da, istinad etdiyi "İstiqlaliyyət Bəyannaməsi"ndə həm Azərbaycana, həm də Türkiyəyə qarşı ərazi iddiası var. Bunu Ermənistan konstitusiyasının 1-ci maddəsində ümummilli dəyərlərin mənbəyi kimi istinad edilən Ermənistanın "İstiqlaliyyət Bəyannaməsi"ndən görürük. Buna görə də Azərbaycan haqlı olaraq rəsmi İrəvandan konstitusiyasına dəyişiklik olunmasını tələb edir.

Ermənistan konstitusiyasından həmin müddəalar çıxarılmadan iki ölkə arasında sülh sazişinin imzalanması mümkün deyil. Azərbaycan Prezidenti İlham Əliyev çıxışları zamanı bunu açıq və qəti şəkildə bildirib: "Sülh sazişinin başlıca şərti Ermənistanın konstitusiyasının dəyişdirilməsidir. Çünki onun tərkibində Azərbaycana qarşı ərazi iddiaları var və bu, baş verməyənə qədər sülh sazişi imzalanmayacaq".

Ermənistanın işğalçı dövlət olduğu onun konstitusiyasından da aydın şəkildə görünür. Ötən illər ərzində bu ölkədə bir neçə dəfə konstitusiya dəyişikliyi olsa da, Qarabağın Ermənistana birləşdirilməsi müddəasının yer aldığı "İstiqlaliyyət Bəyannaməsi"nə istinad edilən maddələr dəyişdirilməyib. Bunlar onu göstərir ki, Ermənistan işğalçılıq siyasətindən əl çəkmək istəmir. Hələ də ötən illərin şirin xəyalları ilə yaşayır. İkinci Qarabağ müharibəsində Azərbaycanın güclü, qüdrəli ordusu tərəfindən düçar olunduğu acı məğlubiyyətdən də dərs almaq niyyətində deyil. Onu da qeyd edək ki, 1998-ci ildə Ermənistan Mərkəzi Seçki Komissiyası Robert Koçaryanın prezident seçkisindəki namizədliyini konstitusiyanın bu maddəsinə istinad edərək təsdiqləmişdi. Ermənistan konstitusiyasına görə, prezident seçkilərində namizəd olmaq üçün Ermənistan vətəndaşı olmaq və son on ildə burada yaşamaq tələbi var. Koçaryan isə Qarabağda anadan olmuşdu və yalnız 1997-ci ildə Ermənistana köçmüşdü. Ona görə də o, prezidentliyə namizəd olmaq üçün bu iki şərtə uyğun deyildi.

Etibarlı sülh sazişinin imzalanması üçün Azərbaycan Ermənistandan konstitusiyasındakı ölkəmizə qarşı ərazi iddialarını aradan qaldırmağı tələb edir. Amma üzdə özünü sülhsevər göstərən Ermənistan bu istiqamətdə real addımlar atmır, heç bir əsas olmadan müxtəlif bəhanələrlə vaxtı uzadır. Proseslərin gedişindən görünən odur ki, Ermənistanın uzatmaq istədiyi vaxt onun xeyrinə deyil, ziyanına işləyir. Əgər doğrudan da, rəsmi İrəvan Azərbaycanla sülh sazişi imzalamaqda səmimidirsə, bunu istəyirsə, iki ölkə arasında olan gərgin münasibətləri normallaşdırmaq niyyətindədirsə, bunun üçün danışıqlara mane olan bütün əngəlləri aradan qaldırmalıdır. Tarixi təcrübə göstərir ki, bütün müharibələr sülh sazişi ilə başa çatır. Ermənistan da sülh üçün gərəkli addımlar atmalıdır.

Azərbaycanın da sülh sazişi imzalamaqda əsas məqsədi yalnız budur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, biz gələcək nəsillərə Cənubi Qafqazda sülhü, sabitliyi miras qoymaq istəyirik. Əgər Ermənistan da bunu istəyirsə, üzərinə düşən öhdəlikləri yerinə yetirməli, o cümlədən konstitusiyasında dəyişiklik etməlidir.

Azərbaycanın ərazi bütövlüyünün tanınması məsələsi sülh prosesinin əsas şərtlərindən biridir. Rəsmi İrəvan heç bir əsas olmadan danışıqlar prosesini ləngidir. Bu həm də ondan irəli gəlir ki, Ermənistan Qərb dövlətlərindən asılı vəziyyətdədir. Ona görə də real addım ata bilmir, yalnız və yalnız bəhanələr uydurur. Azərbaycan isə Ermənistanın bu çirkin siyasətinə qarşı dönməz, qətiyyətli mövqe nümayiş etdirir və sülh məsələsini dünyanın gözü qarşısında iki ölkənin öz səyləri ilə həll olunmasına çağırır. Hansı ki, imzalanacaq sülh sazişi Azərbaycandan daha çox Ermənistana lazımdır. Əgər Ermənistan etibarlı, davamlı sülh şəraitində yaşamaq və inkişaf etmək istəyirsə, həqiqətin heç yaxınlığına belə gəlməyən bəhanələrdən, ölkəni çıxılmaz duruma salmış işğalçılıq niyyətindən əl çəkib zamanın tələbinə uyğun real addımlar atmalıdır. Nəhayət, anlamalıdır ki, onun sülh sazişini imzalamaqdan başqa yolu yoxdur.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## "Əsas məqsəd qayıdışın baş tutması üçün beynəlxalq ictimaiyyətin də Ermənistana təsir göstərməsinə nail olmaqdır"

"Asiya Parlamentinin Bakıda keçirilən sessiyasında qəbul edilən yekun sənəddə qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz yurdlarına qayıtmasına və icmanın qayıdışla bağlı dialoq çağırışlarına birmənalı dəstək ifadə olunması Qərbi Azərbaycan İcmasının beynəlxalq dəstəyin əldə edilməsi istiqamətində növbəti uğurudur".

Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq Qərbi Azərbaycan İcmasının İctimaiyyətlə əlaqələr və Qərbi Azərbaycan Televiziyası şöbəsinin müdiri Ülviyyə Zülfiqar bildirib.

O xatırladıb ki, daha əvvəl İslam Əməkdaşlıq Təşkilatının (İƏT) 2024-cü il mayın 4-5-də Qambiyanın Bancul şəhərində keçirilmiş Zirvə görüşündə də təşkilatın üzvü olan 57 dövlət Ermənistandan zorla qovulmuş azərbaycanlıların taleyindən narahatlığını bildirərək onların öz doğma yurdlarına sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə qayıdışına dəstək ifadə etmişdilər. Bundan əlavə, dövlət və hökumət başçıları Ermənistanda müsəlman mədəni irsinin təhqir edilməsini və dağıdılmasını sərt şəkildə qınamışdılar. Qərbi Azərbaycan İcmasının, Qayıdış Konsepsiyası da daxil olmaqla 10 sənədi BMT-nin rəsmi sənədi kimi yayılıb.

"Biz qərbi azərbaycanlıların geri qayıdış hüququnun təmin olunmasını və onların haqq işini dəstəkləyən bütün beynəlxalq subyektləri alqışlayır və təşəkkürümüzü bildiririk. İcma beynəlxalq ictimaiyyətin məlumatlandırılması və dəstəyin əldə olunması istiqamətində işini davam etdirəcək.

Əsas məqsəd qərbi azərbaycanlıların beynəlxalq hüququn norma və prinsiplərinə əsasən qayıdış hüququnun təmin olunması və onların sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə geri qayıdışının baş tutması üçün beynəlxalq ictimaiyyətin də Ermənistana təsir göstərməsinə nail olmaqdır. Qərbi azərbaycanlıların Ümumdünya İnsan Haqları Bəyannaməsinin 13-cü maddəsinin 2-ci bəndinə əsasən, geriyə qayıdış hüququ var və bu hüquq BMT qarşısında da öhdəlik götürən Ermənistan tərəfindən təmin edilməlidir", - deyə şöbə müdiri qeyd edib.

## Ermənistan borc içində çabalayır

Ötən ilin sonları və cari ilin ilk iki ayında Ermənistan iqtisadiyyatında qeydə alınan tənəzzül daha da sürətlənib. Bunun əvəzində ölkənin xaricdən maliyyə asılılığı da sürətlə artır. Bu fonda qeyd edək ki, Ermənistanın dövlət borcu artıq 12 milyard ABŞ dollarını ötüb.

"Past" nəşri yazıb ki, 2024-cü ilin dekabr ayının sonuna Ermənistanın ümumi dövlət borcu, yəni daxili və xarici borclarının cəmi 12 milyard 842 milyon dollar olub. Bunun 6 milyard 454 milyon dolları Ermənistanın xarici dövlət borcu, 6 milyard 388 milyon dolları isə daxili borcdur.

Bu ölkənin dövlət borcu dram ifadəsində təxminən 5 trilyon 93 milyard dram təşkil edib. Hazırda Ermənistanın xarici kreditlərinin ən böyük hissəsini Dünya Bankından aldıqları təşkil edir. Ötən il borc faizlərinə və əsas borcun ödənilməsinə təxminən 2 milyard dollar xərclənib. Rəsmi məlumatlara görə, 2024-cü ildə borc faizlərinə 314 milyard dram, əsas borclara isə 451 milyard dram ayrılıb. "İqtisadiyyat naziri Gevorq Papoyanın çirkin manipulyasiyasından sonra dövlət borcu ilə bağlı söhbətlər qızışıb. Belə ki, nazir ictimaiyyəti aldatmaq qərarına gəlib, xarici borclarla bağlı məlumatları açıqlayıb, dövlət borcunun o qədər də böyük olmadığı təəssüratı yaradıb. Üstəlik, o, sosial şəbəkədə istifadəçinin sualına cavab olaraq bildirib ki, daxili borc bir cibdən pul çıxarıb digərinə qoymaqla eynidir", - deyə nəşr bildirib.

Borc məbləğinin artmasının səbəbi Ermənistanın ötən il iqtisadi böhrandan tam çıxa bilməməsi və iqtisadiyyatı stimullaşdırmaq üçün əlavə tədbirlərin görülməməsidir. Dünyada bütün ölkələrin dövlət borcu var. Problem bunda deyil, onun sürətli artım tempində və vəsaitlərdən effektiv istifadəsindədir. Xüsusi halda cari ilin iki ayı ərzində hökumət dövlət borcunu 2,5 faiz artırıb, halbuki 2024-cü ilin yanvar-oktyabr aylarında Ermənistanda iqtisadi fəallıq 5,2 faiz təşkil edib. Hazırda Ermənistanın hər bir vətəndaşına 3 min ABŞ dollarından çox məbləğdə borc düşür. Bu vəziyyətdə iş yerlərinin bağlanması, artan inflyasiya əhalinin ölkədən yeni köçünə rəvac verir.



Məhz belə bir vaxtda aparılan hesablamalar göstərir ki, son 6 ayda Ermənistanda əhalinin təbii artımı min nəfərə çatmır. Təbii artımın azalmasına ermənilərin kütləvi şəkildə ölkəni tərk etməsi də ciddi təsir göstərir.

Dünya Bankının hazırladığı hesabatda məlumat verilir ki, Ermənistanda təxminən hər 3 qadına 2 kişi düşür. Məlumatda deyilir ki, Ermənistan əhalinin cinsi tərkibinə görə dünyada ən acınacaqlı vəziyyətdədir. Hazırda Ermənistanda əhalinin 55 faizdən çoxu qadınlardır. Yeri gəlmişkən məlumatda o da qeyd edilir ki, keçmiş sovet ölkələri qadınların sayına görə dünyada öndə gedir. Məsələn, Ukrayna qadınların ən çox olduğu ikinci ölkədir. Belə ki, bu ölkədə qadınlar əhalinin 54,08 faizini təşkil edir. İlk üçlüyü isə digər keçmiş sovet respublikası Belarus qapadır. Bu ölkədə zərif cinsin nümayəndələri əhalinin 53,96 faizini təşkil edir. Rusiyada da qadınlar kişilərdən çoxdur. Şimal qonşumuzun əhalisinin 53,56 faizi qadınlardır.

Rusiyadan sonra siyahıda müvafiq olaraq Latviya (53,62 faiz) və Litva (53,03 faiz) yer alıb. Reytinqdə son pilləleri Körfəz ölkələri tutur. Qadın əhalinin ən aşağı nisbəti Qətərdədir (27,49 faiz). BƏƏ-də faiz bir qədər yüksəkdir (30,62 faiz). Növbəti sırada isə Bəhreyn qərarlaşıb - 38,04 faiz.

Əsasən reproduktiv yaşda olan kişilər və qadınlar da daxil olmaqla, daha çox gənc ailələr Ermənistanı tərk edirlər. Bu da qısa müddətdə ölkənin demoqrafiyasında mənfi nəticələrə gətirib çıxarır. "4rd.am" portalı bu xüsusda yazır: "Miqrasiya sahəsində ötənilki rekordun bu il artacağı tamamilə mümkündür. Emiqrasiya prosesinin yalnız Rusiya ilə məhdudlaşmadığı məlumdur. Həm də aydındır ki, reproduktiv yaşda kişilər və qadınlar da daxil olmaqla, əsasən gənc ailələr mühacirət edirlər. Bu, artıq qısa müddətdə ölkənin demoqrafiyasını aradan qaldırıla bilməyən mənfi nəticələrlə təhdid edir".

Beləliklə, proseslər Ermənistanın sürətlə məhvinə doğru yaxınlaşdığını bir daha təsdiqləyir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## Türk diplomat: "Vəzifəsi qlobal sülh və təhlükəsizliyi təmin etmək olan beynəlxalq təşkilatlar gərginliyin artmasına xidmət edirlər"

"Beynəlxalq təşkilatların əsas vəzifəsi qlobal sülhü və təhlükəsizliyi təmin etmək olsa da, elə bir hal yaranıb ki, onlar qarşıdurmaları qızışdırmağa, gərginliyin artmasına xidmət edirlər".



AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin ölkəmizdəki səfirliyinin mətbuat müşaviri Alptekin Cihangir İşbilir Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsi tərəfindən "Stratcom Public Forum" çərçivəsində təşkil edilən "Daha ədalətli bir dünya mümkündür" adlı panel toplantısında açılış nitqində səsləndirib.

Diplomat bildirib ki, beynəlxalq sistem sülhü təmin etməkdə çətinliklərlə qarşılaşır: "Dünya sistemində islahatlara, dəyişikliklərə ehtiyac var. Bu məqsədlə tutarlı tədbirlərin görülməsi son dərəcə zəruridir. Dünya miqyasında sülhə və təhlükəsizliyə töhfə vermək üçün bir sıra qurumlar mövcuddur. Müharibələrin qarşısına sədd çəkmək elə sülhün təminatı mənasına gəlir. Ancaq biz qlobal qurumların bu qırğınları daha da alovlandırdığının şahidi olmaqdayıq. Mən buna çox təəssüf edirəm".

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Ruben Vardanyanın vatsapda və teleqramda apardığı gizli danışıqlar məhkəmə zalında nümayiş etdirilib



Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, həmçinin terrorçuluq, terrorçuluğu maliyyələşdirməyə dair maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesinin baxış iclası martın 4-də davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

İclasın əvvəlində Ruben Vardanyanın müdafiəçisi Avraam Berman məhkəməyə müraciət edərək müdafiə etdiyi şəxsə hüquq və vəzifələrinin izahına dair bildirişin təqdim olunması, işin materialları, o cümlədən məhkəmə iclasının protokolları ilə tanış olmaq üçün əlavə şəraitin yaradılması, təqsirləndirilən şəxs qismində cəlbetmə haqqında qərarın rus dilinə tərcümə variantının təqdim olunmasına dair vəsatətləri təqdim edib.

Dövlət ittihamını müdafiə edən baş prokurorun böyük köməkçisi Vüsal Əliyev vəsatətlərə münasibət bildirərək qeyd edib ki, eyni məzmunlu vəsatətə əvvəlki məhkəmə proseslərində baxılaraq müvafiq qərar qəbul olunub. Belə ki, təqsirləndirilən şəxsə həm ibtidai istintaqın, həm də məhkəmənin gedişində işin materialları ilə tanış olmaq üçün kifayət qədər vaxt verilib. Həmçinin təqsirləndirilən şəxsə hüquq və vəzifələrinin izahına dair bildirişlərin, cinayət məsuliyyətinə cəlbetmə haqqında qərarın təqdim olunması işin materialları ilə təsdiq edilir. Bütün bunları nəzərə alaraq prokuror həmin vəsatətlərin baxılmamış saxlanılmasını məhkəmədən xahiş edib.

Məhkəmə iclasında iştirak edən zərərçəkmiş şəxslər ittiham tərəfinin mövqeyi ilə razılaşdıqlarını bildiriblər.

Məhkəmə yerində müşavirə keçirərək vəsatətlərə münasibət bildirib.

Zeynal Ağayev qeyd edib ki, təqsirləndirilən şəxsə ibtidai istintaq dövründə hüquq və vəzifələrinin izahına dair bildiriş təqdim olunub və bu hal işin materialları ilə təsdiqlənir. Bundan başqa, həm məhkəmənin hazırlıq iclasında, həm də məhkəmə baxışının gedişində təqsirləndirilən şəxsə hüquq və vəzifələri ətraflı izah olunub, buna dair bildirişlər məhkəmə tərəfindən də ona rəsmi şəkildə təqdim edilib. Həmçinin işin materialları ilə tanış olmaq üçün təqsirləndirilən şəxsə kifayət qədər vaxt verilib. Lakin təqsirləndirilən şəxs işin materiallarında olan sənədlər, o cümlədən məhkəmə iclasının protokolları ilə tanış olmaq istəyirsə, bununla bağlı ona yenidən şərait yaradılacaq.

Daha sonra təqsirləndirilən şəxs Ruben Vardanyana sərbəst ifadə verməsi yenidən təklif olunub. Ruben Vardanyan ifadə verməkdən imtina edib.

Bundan sonra dövlət ittihamını müdafiə edən prokurorlar təqsirləndirilən şəxsə ittiham olunduğu cinayət əməlləri üzrə suallar veriblər.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev R.Vardanyandan həmtəsisçisi olduğu, humanitar məqsədlər pərdəsi altında fəaliyyət göstərən təşkilatların təyinatı, məqsədləri, vaxtilə işğal altında olmuş ərazilərdə həyata keçirilmiş layihələr, həmin təşkilatların üzvləri ilə münasibətləri, eləcə də ictimai fəal Mirzə Dinnayinin Azərbaycan Respublikasının vaxtilə işğal altında olmuş suveren ərazisi Qarabağa qanunsuz səfər etməsi, onunla keçirdiyi görüşlər barədə suallar verib.

Sonra təqsirləndirilən şəxsə helikopter tipli pilotsuz uçuş aparatlarının (PUA) alınması və onları istehsal edəcək zavodun inşası üçün texniki sənədlərin əldə edilməsi barədə apardığı danışıqlar, Arman Djilavyan adlı şəxsə zavodun inşası məqsədilə müvafiq sənədlərin alınmasına dair verdiyi tapşırıqlar, bu fəaliyyəti Ermənistan Respublikası ilə razılaşdırması barədə suallar ünvanlanıb.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli təqsirləndirilən şəxs R.Vardanyana "VoMa" terror təşkilatının qurucusu Vartanov Vladimir (Vova) Levanoviçlə münasibəti, aralarında vatsap vasitəsilə aparılan yazışmalar və göndərilən səsli mesajlar, təşkilat tərəfindən Ermənistanın nəzarətində olan Qarabağdakı qanunsuz silahlı birləşmələrə təlimlərin keçirilməsinin təşkili və maliyyələşdirilməsi, Vladimir Vartanovun Birinci Qarabağ müharibəsində, 2016-cı ilin Aprel döyüşlərində və İkinci Qarabağ müharibəsində Azərbaycan Respublikası ərazisində Silahlı Qüvvələrimizə qarşı hərbi əməliyyatlarda iştirak etməsi, təşkilatın təlimçiləri barədə suallar verib.

Həmçinin təqsirləndirilən şəxsdən həmin təlimlərin keçirilməsinə Ermənistan tərəfindən razılığın verilib-verilməməsi, buna dair şəraitin kim tərəfindən yaradılması, təlimlərə yetkinlik yaşına çatmayan şəxslərin cəlb olub-olunmaması, o cümlədən R.Vardanyanın bu təlimləri sahibkar və ya qondarma rejimin vəzifəli şəxsi kimi təşkil etməsi və maliyyələşdirməsi soruşulub.

Daha sonra R.Vardanyandan təhlükəsizlik məsələləri üzrə ekspert adı altında fəaliyyət göstərən "27 Komitəsi" hərəkatının təsisçisi və sədri Poqosyan Vladimir Sergeyeviçlə münasibətləri, onunla "Signal" mobil tətbiqi, eləcə də digər mobil tətbiqlər və sosial şəbəkələr vasitəsilə apardığı danışıqlar və yazışmalar, aralarında işbirliyinin olub-olmaması, "düşmən" adlandırdıqları Azərbaycan dövlətini böyük itkilərə məruz qoymaq, hətta zərbə vurmaq məqsədilə "xüsusi əməliyyatlar qüvvələrinin milli mərkəzi"nin yaradılmasının Ermənistan dövlətinin planı olub-olmaması, "böyük itkilər"in nədən ibarət olması, həmin mərkəzin digər üzvləri və maliyyələşmə qaydalarına dair suallar verilib.

Bundan başqa, sözügedən "mərkəz"in qondarma quruma, yoxsa qondarma qurumun Müdafiə Nazirliyinin faktiki olaraq Ermənistan dövlətinə tabe olduğu kimi, eyni qaydada Ermənistana tabe olub-olmadığına dair suallar soruşulub.

Ardınca Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov təqsirləndirilən şəxs R.Vardanyana Rusiya Federasiyası ərazisində fəaliyyət göstərən "AKVA" şirkətinin məsul şəxsləri ilə danışıqlar aparmaqla qondarma rejim üçün zenit-raket komplekslərinin (ZRK) alınması, eləcə də bu qurğuları istehsal edəcək müəssisənin inşası üçün vəsait toplanması, özünü Qarabağda yaşayan erməniəsilli şəxslərə "humanitar yardım göstərən" sahibkar kimi təqdim edən, bir müddət guya yalnız sosial-iqtisadi məsələlərə cavabdehlik daşıyan "dövlət naziri" kimi hərbi təyinatlı qurğuların istehsalı müəssisəsini yaratmaqda məqsədi, Azərbaycanın vaxtilə işğal altında olmuş suveren ərazilərində fəaliyyət göstərən qanunsuz silahlı birləşmələri və qrupları silah-sursatla təmin etməkdə niyyəti, hərbi təyinatlı istehsal müəssisəsinin qurulması istiqamətində apardığı danışıqları Ermənistanla razılaşdırması, onlar tərəfindən bu planın reallaşdırılması üçün hər hansı vəsaitin və ya digər əmlakın verilib-verilməməsi barədə suallar verilib.

Bundan sonra dövlət ittihamçısı Fuad Musayev Ruben Vardanyanın Ermənistan ərazisindən Azərbaycanın vaxtilə işğal altında olmuş Qarabağ bölgəsinə daxil olub məskunlaşdıqdan sonra Ermənistan ərazisindən bir neçə dəfə digər ölkələrə getməsi, sonra isə yenidən Ermənistana qayıdıb keçmiş qondarma rejimin olduğu əraziyə daxil olmasına baxmayaraq, hansı səbəbdən ona məxsus pasportda yalnız Ermənistana girişinə və oradan çıxmasına dair qeydin aparılması, özünü müstəqil dövlət kimi təqdim edən qondarma qurumun yerləşdiyi ərazilərə keçid etdikdə hər hansı sənəd təqdim edib-etməməsi, pasportunda buna dair qeydin aparılmaması, habelə bu keçidlərin başqa hansısa formada rəsmiləşdirilib-rəsmiləşdirilməməsi barədə suallar ünvanlayıb.

Həmçinin təqsirləndirilən şəxsə Qarabağ ərazisində müxtəlif yaş kateqoriyalarından olan şəxslər üçün hərbi təlimlərin keçirilməsi, bu məqsədlə hərbi düşərgələrin yaradılması, təlimçilərin şəxsiyyəti, təlim planları, təsisçisi olduğu "Biz - dağlarımızıq" adlı təşkilata "Ruben Vadanyan Foundation", "Dilijan Community Center", "Aznavour Foundation", digər təşkilatlar, fondlar və fiziki şəxslərdən bilavasitə terrorçuluqla bağlı təlimləri maliyyələşdirmək məqsədilə vəsaitlərin toplanması, həmin vəsaitlər hesabına müxtəlif idman yarışlarının və xüsusi düşərgələrdə təlimlərin keçirilməsi, buna dair müxtəlif şəxslərlə aparılan danışıqlar, o cümlədən Aik Ovakimian adlı şəxsə yazdığı "məni çoxu ilk gündən günahlandırır ki, guya mən qan və qurbanlar olmasını istəyirəm", "son üç ayda hazırladığımız 120 nəfər barədə bir saniyə belə şübhə etmirəm, ancaq bu, dənizdə bir damladır" kimi və digər mesajlar, həmçinin bu təlimlərin Ermənistanın razılığı ilə keçirilməsi barədə suallar verilib.

Daha sonra dövlət ittihamçısı Vüsal Abdullayev təqsirləndirilən şəxs R.Vardanyana "Biz - dağlarımızıq" təşkilatı və digər yardım aksiyaları adı altında pul vəsaitlərinin toplanması, bu vəsaitlər hesabına müxtəlif odlu silah, döyüş sursatları, partlayıcı maddələr, hərbi texnikanı əldə edərək Ermənistandan qanunsuz şəkildə Qarabağa gətirilməsinin məqsədi, bu silahlardan nədə istifadə etmək niyyəti, silahların gətirilməsinin kim tərəfindən təşkil edilməsi, həmin hərəkətləri həyata keçirmək üçün Ermənistan dövlətindən hansı dəstəyi alması, silah-sursatın kimin balansında olması, sosial-iqtisadi məsələlərə cavabdeh "dövlət naziri"nin ofisində və bağ evində hansı səbəbdən bu qədər hərbi təyinatlı avadanlığın olmasına dair suallar verib.

Eyni zamanda Qarabağda olmuş qanunsuz silahlı birləşmələrin rəhbərlərinin və üzvlərinin adlı siyahısı sadalanaraq təqsirləndirilən şəxs R.Vardanyana həmin şəxslərlə münasibətləri, onlara aylıq muzd ödəməsi, pul vəsaitlərinin hansı qaydada və kim tərəfindən verilməsi, ümumiyyətlə, muzdun ayrılması qaydasına dair suallar ünvanlanıb.

R.Vardanyana pilotsuz uçuş aparatlarının (PUA) alınması üçün teleqram üzərindən əlaqə saxladığı Artur Alaverdiyan adlı şəxslə münasibətləri, PUA-ları almaqda məqsədi, onları hansı maliyyə vəsaitləri hesabına almaq niyyətində olması, digər şəxs və ya təşkilatlardan PUA-ların alınması üçün vəsaitlərin toplanması barədə suallar verilib.

Nəhayət, dövlət ittihamçısı Təranə Məmmədova təqsirləndirilən şəxs R.Vardanyana Azərbaycan Respublikasının xarici ölkələrdə olan diplomatik korpusunun nümayəndələrinə qarşı terror aktları törədilməsi üçün "Nemezis-2" terror əməliyyatının başlanılmasına təşəbbüs göstərməsi, həmin terror əməllərinə hazırlıq görməsi, əməliyyatın hansı səbəbdən məhz "Nemezis-2" adlandırılması, bu əməliyyatın başlanılması təşəbbüsünü irəli sürməkdə məqsədi və terror əməliyyatlarını konkret olaraq kimlərə qarşı həyata keçirməyi planlaşdırdığı, azərbaycanlı diplomatlara qarşı terror aktlarını törətməklə vermək istədiyi mesaj, terror əməliyyatının həyata keçirilməsi planları barədə kimlərlə məsləhətləşmələr aparması, bu əməllərin reallaşdırılması istiqamətində konkret olaraq hansı tədbirlər görməsi, bu məqsədlə kimlərə tapşırıqlar verməsi və buna nə qədər maliyyə vəsaitinin sərf olunması və ya sərf edilməsinin planlaşdırılması barədə suallar verib.

Təqsirləndirilən şəxs Ruben Vardanyan ona verilmiş sualların heç birini cavablandırmayıb.

Məhkəmə baxışı zamanı Ruben Vardanyanın qeyd olunan məsələlərlə bağlı vatsap, "Signal" və teleqram tətbiqləri üzərindən şəxsən apardığı səsli danışıqlar və yazışmalar, tərtib etdiyi sənədlər, foto və videogörüntülər ona verilən suallarla əlaqədar məhkəmə zalında nümayiş etdirilib.

Məhkəmənin növbəti iclası martın 11-nə təyin olunub.

## Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində növbəti başçəkmə həyata keçirilib

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva tərəfindən şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə başçəkmələr davam etdirilir.

Bu barədə AZƏRTAC-a Ombudsman Aparatının Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, ombudsman və onun İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Qrupunun üzvlərinin iştirak etdiyi növbəti başçəkmə Dövlət Təhlükəsizliyi Xidmətinin Müvəqqəti saxlama yeri və istintaq təcridxanasında keçirilib.

Başçəkmə zamanı təqsirləndirilən bir çox şəxs, o cümlədən Ruben Vardanyan, Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit Babayan və digərləri ombudsman tərəfindən fərdi qaydada qəbul edilib. Konfidensial qəbul zamanı həmin şəxslərin müraciətləri dinlənilib, hüquqlarının təmini vəziyyəti yerində öyrənilib.

Milli Preventiv Qrupun ixtisasca həkim üzvünün də iştirak etdiyi başçəkmə zamanı fərdi qaydada dinlənilən və tibbi müayinə olunan şəxslər, o cümlədən R.Vardanyan və B.Saakyan saxlandıqları dövrdən onlara humanist münasibət göstərildiyini, hər hansı bir ayrı-seçkiliyə və pis rəftara məruz qalmadıqlarını, normal saxlanma şəraiti və tibbi xidmətlə təmin olunduqlarını, ombudsman və Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən dəfələrlə qəbul edildiklərini bildirərək növbəti qəbula görə təşəkkür ediblər. Başçəkmə çərçivəsində müəssisədə saxlanma şəraiti - şəxsi gigiyena və sanitariya, tibbi xidmət, qidalanma məsələləri yerində araşdırılıb, saxlanılan şəxslərə münasibətdə də heç bir fərq qoyulmadan hüquqlarının, lazımi tibbi-psixoloji xidmətin, hüquqi yardıma və informasiyaya çatım imkanlarının təmin olunduğu müəyyən edilib.

Qəbul edilmiş şəxslərə hüquqları üzrə müraciət mexanizmləri ilə bağlı qanunvericilik aktları, ombudsmanın "916" Çağrı Mərkəzi vasitəsilə müraciət imkanlarına dair məlumatlandırıcı nəşrlər təqdim olunub.

## Türkiyənin "Star" qəzeti Azərbaycan xalqına qarşı cinayətlərdə ittiham edilən şəxslərlə bağlı Bakıdakı məhkəmə prosesindən yazıb

Türkiyənin "Star" qəzeti sülh və insanlığa qarşı çoxsaylı cinayət - müharibə cinayətləri, terrorizm, hakimiyyəti zorakılıqla ələ keçirmə və digər ittihamlarla mühakimə olunan Ermənistanın 15 vətəndaşının Azərbaycanda davam edən məhkəmə prosesi barədə ətraflı məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, "Ermənilər arasında Qarabağ böhranı. Etiraflar bir-birinin ardınca səsləndirilir" sərlövhəli məqalədə diqqət təqsirləndirilən Arayik Arutyunyanın Bakı Hərbi Məhkəməsində verdiyi ifadəyə çəkilir. "Qondarma "DQR prezidenti" İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın rayonlarının raket və artilleriya atəşinə tutulmasına görə məsuliyyəti Ermənistan hakimiyyətinin üzərinə atıb". Bu sözləri Türkiyə nəşri A.Arutyunyanın Ermənistan Baş Qərargahının keçmiş rəhbəri Onik Qasparyana ünvanladığı müvafiq ifadələrə istinadla yazır.

"Star" qəzeti onun sözlərini qeyd edir: "Kimin hansı səlahiyyətlərə sahib olduğu, hansı silahların istifadə ediləcəyi və sairə məsələlərlə bağlı Qasparyandan həmin qərarların əsaslı olub-olmadığını soruşduqda, o cavab verdi ki, bəli, Azərbaycanın hava limanları bizim əsas hədəfimizdir və biz bu hədəfləri məhv etməliyik. Belə bir təəssürat yaratmalıyıq ki, bu zərbələr Qarabağ tərəfdən endirilir".

Nəşr oxucuları A.Arutyunyanın Azərbaycan Prezidenti İlham Əliyevə göndərmək istədiyi, amma buna icazə verilməyən məktubu ilə bağlı sözləri ilə də tanış edir: "Müharibə zamanı mən Azərbaycan Prezidentinə məktub göndərmək istəyirdim, lakin Ermənistanın baş naziri Nikol Paşinyan buna imkan vermədi".

## Ənənəvi erməni yalanı

### Arayik Harutyunyanın məhkəmədə törətdiyi cinayət əməllərini danması və digərlərinin boynuna atması hay hiyləgərliyinin təzahürüdür

Azərbaycan suverenliyini təmin etdikdən sonra xalqımıza qarşı silsilə hərbi cinayətlərdə təqsirli bilinən erməniəsilli şəxslərin bir qismi Bakıda məhkəməyə çıxarılıb. Ədalətin təntənəsi kimi tarixə düşən və hazırda da davam etdirilən bu məhkəmə prosesində çoxsaylı cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan, o cümlədən Ruben Vardanyan və digərləri törətdikləri əməllərə görə ittiham edilirlər.

Beynəlxalq və milli qanunvericiliyə uyğun formada həyata keçirilən bu məhkəmə proseslərində təqsirləndirilən şəxslərin erməni genetikasında kodlaşmış hiyləgərliyə xas olaraq "məzlum", "günahsız" obrazlarını necə məharətlə oynadıqlarına ikrahla tamaşa edirik.

Məsələn, keçirilən məhkəmə proseslərində R.Vardanyanın ağzını bıçaq açmır. Guya bununla o, günahlarının üstünü ört-basdır edəcəyini, törətdiyi cinayətlərə görə məsuliyyətdən yayınacağını sanır.

Digər erməni hiyləgəri Arayik Harutyunyan isə məhkəmədə göstərdiyi şou ilə, sözün əsl mənasında, hay həyasızlığının sərhəd tanımadığını bir daha əyani şəkildə gözlər önünə sərir.

#### Sanki "süddən çıxmış ağ qaşıq"dır

Martın 3-də erməniəsilli təqsirləndirilən şəxslərin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesinin baxış iclası davam etdirilib. Budəfəki məhkəmə iclasında təqsirləndirilən şəxslər Lyova Mnaksakanyan, Arayik Harutyunyan, Erik Qazaryan və Vasili Beqlaryan sərbəst ifadə veriblər.

Təqsirləndirilən şəxs Arayik Harutyunyanın məhkəmədə verdiyi həmin sərbəst ifadə ilə tanış olanda adama elə gəlir ki, sanki Arayik "süddən çıxmış ağ qaşıq"dır. Qarabağda separatçılara rəhbərlik edən, Şuşada özünə "inaqurasiya" təşkil edən, Gəncədə xalqımıza qarşı terror törətdiyini kamera qarşısında öyünə-öyünə etiraf edən... o olmayıb. Məlumdur ki, məhz A.Harutyunyanın qondarma quruma başçılıq etdiyi dövrdə Azərbaycanın işğal olunmuş ərazilərində xarici ölkələrdən gətirilmiş ermənilərin qeyri-qanuni məskunlaşdırılması sürətlənmişdi. 2020-ci il avqustun 5-də Arayik Livanda yaşayan 100-150 erməni ailəsini qəbul etməyə hazır olduqlarını, həmin ayın 25-də isə Livan ermənilərinə yardım proqramlarına həsr olunmuş iclasda çıxış edərək qondarma rejimin Qarabağa "köçmək istəyən bütün soydaşlarını qarşılayacağını və mənzillə təmin edəcəyini" bəyan etmişdi. Harutyunyanın bu kimi hərbi cinayət əməlləri ilə bağlı nümunələr kifayət qədərdir.

1992-ci ildə qondarma "respublika"nın qanunsuz silahlı dəstələrinə qoşulub Qarabağ müharibəsində separatçı kimi döyüşlərdə iştirak edən Arayik Harutyunyan məhkəmədəki sərbəst ifadəsində 44 günlük müharibə ərəfəsində, eləcə də həmin müharibə dövründə baş verənləri guya öz xeyrinə düzülüb-qoşulmuş şəkildə təqdim edir, Azərbaycana qarşı törətdiyi bütün hərbi cinayət əməllərinin təqsirini başqalarının, o cümlədən baş nazir Nikol Paşinyanın üzərinə yıxır ki, dara düşəndə başqalarını satmağın da erməni xislətində olan bir başqa məziyyət olduğu ayrı gerçəklikdir.

Arayik sərbəst ifadəsində bunları deyir: "...Sonra iyul ayında (2020-red) siz daha yaxşı bilirsiniz ki, o vaxt Tovuzda atışmalar baş verdi. Orada nə baş verməsi barədə mənim təsəvvürüm də yox idi. Televizorda nə göstəriblərsə, yalnız onu bilirəm. Mən yeni bir adam olduğum üçün gərək "ordu" ilə tanış olardım və təmas xəttində nə baş verirsə bilərdim. 2020-ci ilin yayında ön cəbhəni və "ordu"nu gəzməyə, tanış olmağa başladım. Mən "feysbuk" səhifəmdə və "rəhbərliyin saytında" bir neçə məqalə dərc etdim. "Ordu" ilə bağlı bütün informasiyaları "mətbuat xidməti" bizə təqdim edirdi. Və mənim səhifəmdə onlar çap olunurdu. Bəli, orada mənim elə çıxışlarım və söylədiklərim var idi ki, indi hazırda təəssüf edirəm ki, bunlara yol vermişəm".

Mülki insanlar kimi Tovuz döyüşlərini yalnız televiziyadan izlədiyini uyduran Arayikin məhkəmədəki ifadəsində, sadəcə, bir məqam doğrudur. O, həmin vaxt etdiyi bəzi çıxışlarına və söylədiklərinə görə təəssüf etdiyini dilə gətirir. Çünki hiyləgər hay eyforiyaya qapıldığı həmin anlarda ağlının ucundan da keçirmirdi ki, bir gün gələcək vaxtilə etdiyi hədyanlar Bakıda məhkəmədə qarşısına fakt kimi qoyulacaq.

#### Bütün məsuliyyəti Paşinyan daşıyır?!.

Daha sonra A.Harutyunyan ifadəsində 2020-ci ilin yayında və iyunun sonunda "Qarabağ ordusu"nun təlimlərini müşahidə etdiyini bildirərək, təlimlərə Ermənistan ordusunun qərargah rəisi Onik Qasparyanın rəhbərlik etdiyini, habelə Azərbaycanın dərinliklərinə zərbələr endirilməsi barədə qərarların Ermənistan tərəfindən verildiyini deyib. Yəni özünün guya heç bir şeydən xəbərinin olmadığını söyləyib: "Yayın sonunda Qarabağa Nikol Paşinyan gəldi. Mən onu "ordu bölmələri"nə qədər müşayiət eləmişəm. O, vəziyyətlə tanış oldu. Eşidirdim, görürdüm ki, "silahlı qüvvələr"də nə baş verir. Mən "Qarabağ müdafiə komitəsi"ndən heç bir məlumat almamışdım. Situasiya barədə heç vaxt mənə heç bir məlumat verilməyib. "Ordu" üzərində mənim heç bir səlahiyyətim olmayıb. Bu, sizə də məlumdur. İttiham aktında da bu barədə yazılıb. Ermənistan mətbuatında da bu barədə dəfələrlə qeyd olunub, deyilib ki, Qarabağda olan ermənilərin təhlükəsizliyinə görə Ermənistan məsuliyyət daşıyır. Ermənistan silahlı qüvvələri, "Qarabağ müdafiə ordusu" da ora daxil idi. Deməli, Ermənistan təhlükəsizliklə bağlı məsələlərə görə məsuliyyət daşıyır".

Onun ifadəsinə görə, 44 günlük müharibə dövründə də A.Harutyunyan heç bir halda müharibədə iştirak etməyib. "Sülh göyərçini" kimi, sadəcə, müharibənin dayandırılmasını düşünüb və Paşinyana da bu barədə deyib: "İlk günlərdən mənim Paşinyanla söhbətim ondan ibarət oldu ki, müharibə nə vaxt dayandırılacaq".

Sonra Arayik davam edib: "Həmin gün (2020.10.02) Azərbaycanın dərinliklərində hərbi obyektlərə zərbələr endirmək barədə qərar qəbul olunmuşdu. Raket və yaxud da artilleriya qurğularından. Əsasən siyasi hərbi vertikal "Qarabağ müdafiə ordusu"nun "qərargah rəisi"ndən başlayırdı, yuxarıdan aşağı. Levon Mnatsakanyanın bir qədər əvvəl verdiyi ifadələrdən artıq mənə aydın oldu ki, istintaqın xəbəri var ki, o, hansı səlahiyyətlərə malik idi və nə edə bilərdi. Mən bilmirdim ki, kimin hansı səlahiyyətləri var, hansı silahlardan istifadə olunmalıdır, olunacaq və sair. Mən Onik Qasparyandan soruşanda ki, bu qərarlar əsaslandırılmışdırmı, o, mənə dedi ki, bəli, Azərbaycanın hava limanları bizim əsas hədəfimizdir və biz o hədəfləri məhv etməliyik. Deyilmişdi ki, elə təəssürat yaranmalıdır, elə etməliyik ki, guya bu zərbələr Qarabağ tərəfindən endirilir".

O söyləyib ki, "Qarabağ Müdafiə Ordusu"nun "komandanı" Ermənistanın Baş Qərargah rəisinə tabe idi: "Mən "hərbi komandanı" vəzifəyə təyin və vəzifədən azad etməmişəm, çünki mənim buna səlahiyyətim olmayıb. Onilliklərlə "Qarabağ ordusu" ayrıca ordu kimi fəaliyyət göstərməyib. "Qarabağ ordusu"nun komandanına qarşı Ermənistanda cinayət işi başlanılıb. Əgər mənə tabe olsaydılar, ona qarşı cinayət işi Qarabağda başlanardı".

Bir sözlə, Qarabağda yuva salmış quldurlara bir neçə il başçılıq etmiş Arayik Harutyunyan məhkəmədəki sərbəst ifadəsində törətdiyi bütün cinayət əməllərini danıb, günahını başqalarının üzərinə yıxıb, yalanlar quraşdırıb. Özünün "məsum", "məzlum", "yazıq", "günahsız" erməni obrazını növbəti dəfə məharətlə oynayıb. Ancaq bütün bu oyunbazlıqlarla Gəncədə baş verən qırğınların və dağıntıların müəllifi Arayik Harutyunyan planlaşdırdığı niyyətlərə çata bilməyəcək. Ölkəmizə, xalqımıza qarşı onun törətdiyi hərbi cinayət əməlləri faktlarla sübuta yetirilərsə, layiqli cəzasını alacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Azərbaycan-Qazaxıstan: iqtisadi əməkdaşlıq bütün sahələri əhatə edir

**Azərbaycan və Qazaxıstan arasında bir çox sahəni əhatə edən münasibətlərin dinamik inkişafı məmnunluq doğurur. İki qardaş ölkənin prezidentlərinin həm Azərbaycanda, həm də Qazaxıstanda mütəmadi görüşləri bu əlaqələrin iqtisadiyyatın ayrı-ayrı sahələrində də əməkdaşlıq və tərəfdaşlığın inkişafına yeni təkan verir.**



Prezident İlham Əliyev bu günlərdə ölkəmizdə rəsmi səfərdə olan Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenovu qəbul edərkən həmin mövzuya da toxunulub. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin ötən il Azərbaycanda keçirilən COP29-da iştirakının ölkəmizlə həmrəyliyi bir daha nümayiş etdirdiyi, həmçinin konfransın uğurla yekunlaşmasına öz töhfəsini verdiyi qeyd olunub. Belə ki, COP29-da bir sıra vacib məsələlər razılaşdırılmış, ölkələrimizi daha da yaxınlaşdıracaq layihələr formalaşdırılmışdır. O cümlədən Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın dövlət başçıları "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalamışlar.

Azərbaycan və Qazaxıstan sosial-iqtisadi inkişaf sahəsində yaxşı göstəricilər nümayiş etdirən qardaş ölkələr kimi beynəlxalq arenada, bölgədə və daha geniş regionda vacib rola malikdirlər. Qazaxıstan və Azərbaycan hökumətləri hər iki ölkənin prezidentləri arasında əldə olunmuş razılaşmaların həyata keçirilməsi üçün səy göstərirlər. Bu xüsusda dövlət başçılarının tapşırıqlarına uyğun olaraq, Trans-Xəzər multimodal nəqliyyat marşrutunun inkişafı üzrə fəal iş aparılır. Həmin marşrutla yük axınının ötən il 60 faiz artdığı da bunu təsdiqləyir.

Son üç ildə ölkələrimiz arasında illik ticarət dövriyyəsi təxminən 3 dəfə artıb, nəqliyyat dəhlizləri üzrə yüklərin, o cümlədən tranzit yüklərin daşınmasında artım davam edib. Azərbaycanda və Qazaxıstanda yaradılmış birgə investisiya fondu vasitəsilə investisiya layihələrinə dəstək verilir, neft-qaz sahəsində birgə layihələr həyata keçirilir. O cümlədən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə Qazaxıstan nefti də vurulur. Daşınma həcminin artırılmasının perspektivləri də mövcuddur. Qazaxıstan həmçinin işğaldan azad olunmuş ərazilərimizin bərpasına töhfə verərək Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzini inşa edib.

Baş nazir Əli Əsədovun qazaxıstanlı həmkarı ilə təkbətək danışıqlarında və hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə görüşdə də Azərbaycan və Qazaxıstan arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da möhkəmləndirilməsi və genişləndirilməsinə qarşılıqlı sadiqlik təsdiqlənib. Azərbaycan-Qazaxıstan strateji tərəfdaşlığının hərtərəfli inkişaf etdiyi vurğulanıb. Azərbaycan Qazaxıstanla strateji tərəfdaşlığın hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir. 165 sənəddən ibarət çox geniş müqavilə-hüquq bazasında öz əksini tapmış ikitərəfli əməkdaşlığın möhkəm bünövrəsi var. İqtisadi-ticari əməkdaşlıq yüksək səviyyədədir. Ötən ilin yekunlarına görə, qarşılıqlı ticarətin həcmi təqribən 500 milyon dollar təşkil edib. Eyni zamanda iki ölkənin iqtisadi inkişaf səviyyəsi və potensialı nəzərə alınaraq qarşılıqlı ticarətin həcminin artırılması üçün birgə səylər göstərilir. Hökumət başçıları bu xüsusda əməkdaşlığın inkişafına dair 2022-2026-cı illər üçün kompleks proqramın icrasının vacibliyini qeyd ediblər.

Qarşılıqlı faydalı layihələrə investisiyaların dəstəklənməsi üçün birgə investisiya fondunun yaradılması da məmnunluq doğurur. Eləcə də kənd təsərrüfatı məhsullarının çeşidinin genişləndirilməsi və qarşılıqlı tədarük həcminin artırılması məsələləri diqqət mərkəzindədir.

Prioritet istiqamətlərdən biri də nəqliyyat və logistika əlaqələrinin inkişafıdır. Belə ki, iki ölkə arasında 2024-cü ilin sonuna 21 faiz təşkil edən tranzit yükdaşımaların həcminin artması müşahidə olunur. Dəmir yolu ilə tranzit daşımaları 33 faiz artıb.

Sözügedən görüşdə tərəflər hökumətlərin Orta dəhlizin inkişafı ilə bağlı dövlət başçılarının tapşırıqlarını yerinə yetirməsini təmin etmək üçün qarşılıqlı öhdəliklərini təsdiqləyiblər. Qazaxıstan tərəfinə beynəlxalq nəqliyyat dəhlizlərinin ölkə ərazisindən keçən bütün əlaqələrin təkmilləşdirilməsi istiqamətində Azərbaycan tərəfindən görülən işlər barədə məlumat verilib. Bu kontekstdə Orta dəhlizin genişlənməsinə mühüm töhfə verə biləcək Zəngəzur dəhlizinin işə salınmasının vacibliyi vurğulanıb.

Azərbaycan-Qazaxıstan iqtisadi əməkdaşlığı getdikcə daha çox sahəni əhatə edir. O cümlədən gəmiqayırma sektorunda yaxşı perspektivlər var. Azərbaycan artıq öz gəmiqayırma imkanlarını Qazaxıstana təklif etməyə hazırdır. Tərəflər eləcə də Avropa ilə Asiya arasında rəqəmsal telekommunikasiya dəhlizinin yaradılması üçün nəzərdə tutulmuş "Rəqəmsal İpək Yolu" strateji kommunikasiya layihəsinin ardıcıl təşviqi üzrə birgə səylər göstərirlər. Qazaxıstan həmçinin Azərbaycan Prezidentinin Xəzər dənizinin dayazlaşmasının səbəblərini müəyyən etmək və dayandırmaq üçün tədbirlərin müəyyən olunması üzrə ekspert qrupunun yaradılması təşəbbüsünü dəstəkləyir.

Qazaxıstanın Baş nazirinin səfəri çərçivəsində bir neçə sənəd imzalanıb. Bunlardan biri də Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin çəkilməsi haqqında sazişin təsdiqinə dair sənəddir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycanla Serbiya arasında ticarət dövriyyəsi 17 dəfəyə yaxın artıb

**Ötən il Azərbaycanla Serbiya arasında ticarət əməliyyatlarının dəyəri 190,3 milyon dollar təşkil edib. Bu barədə "Trend" Dövlət Gömrük Komitəsinə istinadən məlumat yayıb.**

Məlumata əsasən, bu, 2023-cü ildəki göstərici ilə müqayisədə 178,9 milyon dollar və ya 16,7 dəfə çoxdur.

Hesabat dövründə Azərbaycandan Serbiyaya 181,2 milyon dollar dəyərində məhsul ixrac edilib ki, bu da 2023-cü ildəki göstəriciyə nisbətən 180,7 milyon dollar, yaxud 366 dəfə artım deməkdir. Ötən il Azərbaycana Serbiyadan məhsul idxalı isə illik müqayisədə 1,8 milyon dollar və ya 16,7 faiz azalaraq 10,9 milyon dollara bərabər olub.




Təkcə bu ilin yanvar ayında Azərbaycanla Serbiya arasında ticarət əməliyyatlarının dəyəri 17,3 milyon dollara çatıb. Məlumata görə, bu, 2024-cü ilin eyni dövründəki göstərici ilə müqayisədə 16,4 milyon dollar və ya 19,7 dəfə çoxdur.

# Azərbaycanla Mərkəzi Baltik ölkələri arasında əməkdaşlıq yeni formatda davam edəcək

**"LEF network Azerbaijan" layihəsi bu il yekunlaşsa da, Azərbaycan, Latviya, Estoniya və Finlandiya arasında əməkdaşlıq başqa formatda davam edəcək".**

Bu barədə "Trend"ə Latviyanın ticarət-sənaye palatasının Aİ layihələri üzər departamentinin direktoru Liqa Siçyova Azərbaycan, Latviya, Estoniya və Finlandiya arasında biznes əlaqələrinin inkişafına həsr olunmuş B2B Forumu çərçivəsində açıqlamasında bildirib.

""LEF network Azerbaijan" layihəsi şirkətlər arasında əməkdaşlığın inkişafına aktiv şəkildə vasitəçilik edir, lakin layihənin özü bu ilin sonunda yekunlaşır. Biz Azərbaycan, Latviya, Estoniya və Finlandiya arasında əməkdaşlığın və təmasların qurulmasına maraq göstərən şirkətləri dəstəkləyirik. Layihə çərçivəsində bu il Mərkəzi Baltik ölkələrində iki ticarət missiyasının yerinə yetirilməsi planlaşdırılır. Eyni zamanda oktyabr ayında Baltik ölkələrindən Azərbaycana ticarət missiyası təşkil olunacaq", - deyə L.Siçyova bildirib.

O qeyd edib ki, "LEF network Azerbaijan" layihəsinin yekunlaşmasından sonra Azərbaycanın biznes-təşkilatları və "Caspian Energy Club"la əməkdaşlığın davam etdirilməsi planlaşdırılır.

"Biz eyni zamanda əməkdaşlıqla bağlı müxtəlif memorandumlar bağlamağa can atırıq və ola bilsin başqa formatda, Azərbaycan, Latviya, Estoniya və Finlandiya arasında qarşılıqlı-əlaqəni qoruyub saxlamaqla birgə fəaliyyəti davam etdirməyə hazırıq", - deyə o bildirib.

Onun sözlərinə görə, Baltik ölkələrindən olan bizens Azərbaycanda böyük potensial görür. Tarix və mədəniyyətdə insanları birləşdirən orta anlar var. Bununla belə mədəni fərqlər əməkdaşlıq üçün yeni imkanlar açır. "Məsələn, Azərbaycana gələn şirkətlər yerli biznesin Avropa bazarına çıxışını dəstəkləməyə, lazımi sertifikatlaşdırma təşkil etməyə və ya IT

Interreg
Co-funded by the European Union
Central Baltic Programme
LEF network Azerbaijan

çözümləri təqdim etməyə hazırdır", - deyə o əlavə edib.

L.Siçyova qeyd edib ki, "LEF network Azerbaijan" layihəsi Azərbaycanda xüsusilə Caspian Energy Club, AZPROMO, KOBİA və Alman-Azərbaycan Ticarət Palatası kimi təşkilatlardan mühüm dəstək alır.

Qeyd edək ki, "LEF network Azerbaijan" layihəsi Azərbaycan, Latviya, Estoniya və Finlandiya arasında biznes əlaqələrinin inkişafına yönəlib. Layihə 2023-cü ilin martında başlayıb və müddəti 36 aydır. Büdcəsi isə 1,264 milyon avrodur.

## NSM-də 210 milyon manatlıq məhsul istehsal olunub

**Neftçala Sənaye Məhəlləsində (NSM) indiyədək 210 milyon manatlıqdan çox məhsul istehsal edilib ki, bunun da 1,37 milyon manatlığı ixrac olunub.**

İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, 2024-cü ildə 2023-cü illə müqayisədə 5 dəfə çox, yəni 60 milyon manatlıq məhsul satışı həyata keçirilib.




Xatırladaq ki, Neftçala Sənaye Məhəlləsində ümumi investisiya həcmi 63 milyon manatdan çox olan 6 sahibkarlıq subyekti rezident kimi qeydiyyatdan keçib və 5-i istehsal fəaliyyətinə başlayıb.

Bu günədək sənaye məhəlləsinə sahibkarlar tərəfindən 49,5 milyon manat investisiya yatırılıb, burada 300-dən artıq daimi iş yeri yaradılıb. Növbəti mərhələdə mövcud layihələr üzrə əlavə olaraq 200-ə yaxın iş yerinin də yaradılması nəzərdə tutulur.

# Qarabağ və Şərqi Zəngəzurda şəhərsalmanın Azərbaycan modeli yaradılır

**Bu gün Azərbaycanın qarşısında duran əsas vəzifələrdən biri Qarabağ və Şərqi Zəngəzurda dağıdılaraq viran qalmış şəhərləri, kənd və qəsəbələri bərpa edib, keçmiş məcburi köçkünləri doğma yurdlarına qaytarmaqdır. Və onu da vurğulayaq ki, artıq regionun bir çox şəhər və kəndində insan nəfəsi duyulur, novruzgülü ətri gəlir, uşaq gülüşləri, gənclərin sevinc dolu çöhrələri yaşlıların simasındakı təbəssümlə birləşib xüsusi ahəng yaradır.**

Bunlar ötən 4 ilin dayanmadan, fasiləsiz surətdə bölgədə aparılan bərpa-quruculuq işlərinin nəticəsidir. Qarabağın şəhərlərini, kəndlərini dağıtmış, tarixi və dini abidələrini məhv etmiş, dolu evləri viran qoymuş, torpaqları minalarla zəhərləmiş ermənilər indi bu yerlərin özünə qayıtmış gözəlliklərinə, "ağıllı yaşayış məntəqələri"nə baxıb için-için qovrulurlar. Qarabağda və Şərqi Zəngəzurda şəhərlərə və kəndlərə qarşı genosid törədənlərin vəhşi əməllərinin, xəbis niyyətlərinin oxşarı son 60-70 ildə dünyanın heç bir yerində baş verməmişdir. Eyni zamanda indiyə kimi dünyanın müharibə gedən heç bir ölkəsində də savaşdan sonra bu cür sürətli bərpa-quruculuq işləri aparılmamışdır.

Şəhərlərin, kənd və qəsəbələrin yenidən qurulması, müasir infrastrukturun yaradılması, hava limanlarının, tunellərin inşası Böyük qayıdışın nümunəsi kimi göz oxşayır. Bu istiqamətdə ilk addım 2022-ci il iyulun 19-da Ağalı kənd sakinlərinin bir qrupunun əzəli ocağa köçürülməsi ilə atılmışdır. Daha sonra digər yerlərə də köç davam etmiş, insanların işğal dövründə işığı azalmış gözlərinə nur gəlmişdir. Doğma yurdun havası, suyu onlara can dərmanı olmuşdur.

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işlərinin timsalında həm də dünya şəhərsalma təcrübəsinin Azərbaycan modeli yaradılır. Bu, dünya mütəxəssisləri tərəfindən müsbət amil kimi dəyərləndirilir. Belə olmasaydı, bəlkə də Azərbaycan paytaxtı Dünya Şəhərsalma Forumunun 2026-cı ildə keçiriləcək 13-cü sessiyasına ev sahibi seçilməzdi. Qərar 2023-cü il dekabrın 22-də Azərbaycanla BMT arasında imzalanmış sazişlə təsdiqlənmişdir. Sessiyada "Sülh şəraitində davamlı inkişaf edən şəhərlər və qəsəbələr" adlı mövzu müzakirə olunacaq. Məlumat üçün bildirək ki, bu beynəlxalq tədbir iki ildənbir dünya şəhərlərinin birində keçirilir. Forum sürətli urbanizasiya və onun şəhərlərin inkişafına təsirini araşdıran ən böyük qlobal platformadır.

Belə mötəbər beynəlxalq tədbir üçün mövzunun seçilməsi də təsadüfi deyil. Çünki Qarabağ və Şərqi Zəngəzurda bərpa ilə yanaşı, sıfırdan yeni, müasir şəhərlər, kəndlər, qəsəbələr salınır. Üstəlik şəhər quruculuğu zamanın tələbinə uyğun və BMT-nin "Dayanıqlı inkişaf məqsədləri" təşəbbüsünün prinsipləri əsasında həyata keçirilir. Ona görə də Azərbaycanın bu təcrübəsi bir çox ölkə üçün maraqlıdır.

Bakıda keçiriləcək Dünya Şəhərsalma Forumu Cənubi Qafqazda ən böyük tədbirlərdən birinə çevriləcək. Tədbirdə həm Azərbaycandan, həm də xarici ölkələrdən dövlət rəsmiləri, QHT-lər, bu sahədə çalışan mütəxəssis və ekspertlər, özəl sektorun nümayəndələri bir araya gələcək, fikir mübadiləsi aparacaq, yeni bilik və təcrübə qazanmaq imkanı əldə edəcəklər. Heç şübhəsiz, 2026-cı ildə Azərbaycan öz uğurları ilə yenə də xarici qonaqları heyran edəcək. Onu da qeyd edək ki, həmin vaxta qədər 140 minə yaxın keçmiş məcburi



köçkünün Qarabağa və Şərqi Zəngəzura qayıtması nəzərdə tutulub.

Zəfərdən sonra Qarabağın bərpasında yerli memarlığa olan maraq daha da güclənmiş, çoxlu sayda layihə müəllifi işğaldan azad olunmuş mühit haqqında düşünməyə, yeni layihələrini ortaya qoymağa başlamışdır. Viran qoyulmuş yaşayış məskənlərinin ötən 4 ildə müasir, günün tələbinə uyğun formada yenidən inşa edilərək yurda dönən sakinlərə təhvil verilməsi prosesində iştirak edən azərbaycanlı memarlar Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin dəstəyini almışlar. İllər öncə komitə tərəfindən təsis olunmuş "Təməl" mükafatı bu günlər 6 nominasiya üzrə 13 ən uğurlu layihənin müəllifinə verilmişdir. Təltif edilənlər arasında Qarabağın və Şərqi Zəngəzurun bərpası üzrə 4 layihə də olmuşdur. "Yaşayış komplekslərinin memarlığı" nominasiyası üzrə Şuşa şəhəri, Qarabağ küçəsində yerləşən binaların fasad həlli (müəllif: Marselina Zielinska), Laçın rayonu, Minkənd kəndinin yenidənqurulması (müəlliflər: Elçin Umudov, Elçin Əliyev, Simurə Əmirova, Jalə Hüseynova), "Bərpa və yenidənqurma layihələri" nominasiyası üzrə Xankəndi şəhəri, təhsil elm və mədəniyyət binasının fasadının yenidənqurulması (müəllif: Ağa Xalıqzadə), "İctimai binaların memarlığı" nominasiyası üzrə Laçın şəhəri, "Asan xidmət" mərkəzinin (müəllif: Samir Abasquliyev) və Laçın Beynəlxalq Hava Limanının layihəsi (müəllif: Elyar Dehghanian, Babək Dehghanian, Boris Qejankin) "Təməl" mükafatına layiq görülmüşlər. Ağdam İmarət Kompleksinin layihə müəllifləri Fabrisio Konti, Valentina Linares, Alessandro Bianki, Fizuli Əliyev, Əli Məmmədov, Yaşar Zeynallı isə II dərəcəli diplom almışlar.

Qarabağ və Şərqi Zəngəzur müasir dünya standartları səviyyəsində qurulur. Sıfırdan başlayan quruculuq prosesində müasir şəhərsalma tendensiyalarına üstünlük verilir, yeni modellər tətbiq olunur. Burada keçmişlə müasirlik bir aradadır, qədim memarlıq abidələrinin tarixi qorunaraq bərpa edilir. Bu o deməkdir ki, yeniliklər keçmişi sıradan çıxarmır, əksinə, mühafizə edərək ömrünü uzadır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*



# İDMAN



◆ 5 Mart Bədən Tərbiyəsi və İdman Günüdür

# Dünya idmanında Azərbaycan imzası





**Azərbaycan gəncliyi, idmançısı üzərinə düşən missiyanı, ona həvalə edilən vəzifəni layiqincə yerinə yetirməyə hazırdır. Çünki ona hərtərəfli qayğı və diqqət göstərilir, idmanın inkişafına ciddi fikir verilir.**

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan azsaylı ölkələrdəndir ki, idman gününü təsis edib. Belə ki, 2005-ci ildə Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 5 mart tarixi ölkəmizdə Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd olunur.

Xatırladaq ki, 1995-ci il martın 5-də Ulu Öndər Heydər Əliyev ölkədə bədən tərbiyəsi və idmanın inkişafında yeni bir mərhələnin əsasını qoyaraq, dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüş keçirib və bundan sonra ölkəmizdə İdman Fondu yaradılıb. Bu tarixin əbədiləşdirilməsi məqsədilə Azərbaycanda idman gününün təsis olunması ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb.

Sevindirici haldır ki, bu gün Azərbaycan idmanı inkişafının ən yüksək dövrünü yaşayır. Hər il müxtəlif nüfuzlu beynəlxalq yarışların Azərbaycanda keçirilməsi və atletlərimizin turnirlərdə qazandığı yüksək nəticələr ölkəmizə böyük imic qazandırıb. Bu bayram günündə idmanımızın ötən bir ildə keçdiyi yola nəzər salsaq, böyük nailiyyətlər qazanıldığını görərik.

Azərbaycan idmançıları Avropa və dünya çempionatlarında, kubok yarışlarında, digər rəsmi beynəlxalq turnirlərdə ümumilikdə 1718 medal qazanıblar. Bu, Azərbaycan idmanı tarixində yeni rekord göstəricidir. Qazanılmış medalların 666-sı qızıl, 465-i gümüş, 587-si bürüncdür. Olimpiya idman növlərində 827, qeyri-Olimpiya idman növlərində 854, paralimpiya idman növlərində isə 37 medal əldə edilib.

Sözsüz ki, yarışların içərisində ən nüfuzlusu XXXIII Yay Olimpiya Oyunları idi. Fransanın paytaxtı Parisdə keçirilən, dünyanın 207 ölkəsindən 10 mindən çox idmançının qatıldığı turnirdə qalib olmaq hər bir atletin arzusu idi. Planetin ən güclülərinin mübarizəsində ilk 3 pillədən birində yer almaq son 4 ildə gərgin və ciddi formada hazırlığın nəticəsidir. Əlbəttə, Olimpiadaya gedən hər bir idmançı yalnız qələbə barədə düşünür. Bu fonda dördilliyin zirvə yarışına 48 idmançı ilə qatılan Azərbaycan komandası turniri 2 qızıl, 2 gümüş və 3 bürünc medalla başa vurub. Qızıl medallar cüdo, gümüş medalların 1-i boks, 1-i taekvondo, bürünc mükafatlar isə güləş yarışlarında qazanılıb.



Olimpiadada yarışan və qalib gələn idmançılar alqışla qarşılanır, qarşıdakı turnirlərə daha məsuliyyətlə yanaşırlar. Ümidləri doğrulda bilməyən idmançılar qınaq obyekti olmamalıdırlar. Sözsüz ki, uğursuzluq sonunda ayrı-ayrı idman növləri üzrə mütəxəssislər hər şeyi araşdıracaq, buraxılmış səhvləri nəzərdə saxlayacaq və lazımi nəticələr çıxaracaqlar.

Bir məsələni xüsusilə diqqətə çatdırmaq yerinə düşərdi. Heç kim deyə bilməz ki, əsas favorit göstərdiyin idmançı Olimpiadada mütləq medal qazanacaq. Çünki dünyanın ən nüfuzlu yarışında qarşındakı rəqib də güclü idmançıdır, o da qələbə uğrunda mübarizə aparır. İdmanda təcrübə və hazırlıqla yanaşı, şans da, idmançının əhvali-ruhiyyəsi də önəmli rol oynayır.

Medal sıralamasında da vəziyyət qənaətbəxşdir. Belə ki, Olimpiya yığmamız Sidneydə 199 ölkə arasında 34-cü, Afinada 202 ölkə arasında 50-ci, Pekində 205 ölkə arasında 39-cu yeri tutmuşdusa, son Olimpiadada medalların sayına görə 30-cu olduq!

Cüdoçularımız Hidayət Heydərov və Zelim Kotsoyev qızıl medallar qazanaraq ölkəmizin Olimpiya tarixinə möhtəşəm töhfə vermişdir.

Qızıl medalçılarımızın döyüş yoluna bir daha nəzər salsaq görərik ki, Olimpiadada heç bir qalibiyyət asan əldə edilmir. Parisdə ilk olaraq Hidayət Heydərov medal həsrətinə son qoydu. Dünya çempionumuz kolleksiyasına daha bir medal əlavə etdi. Özü də finalda fransalı həmkarını məğlub etməklə...

73 kiloqram çəkidə mübarizə aparan dünya reytinqinin birincisi Hidayət Heydərov mübarizəyə 1/8 finaldan başlayıb. Onun rəqibi 1/16 finalın Tohar Bitbul (İsrail) - Reduan Masud Dris (Əlcəzair) cütündə müəyyənləşməli idi. Lakin afrikalı bu qarşılaşmaya çıxmaqdan imtina edib. Hidayət Olimpiadaya Bitbulla görüşlə start verib. O, rəqibini məğlub edərək, mərhələ adlayıb.

H.Heydərov 1/4 finalda Artur Marqelidon (Kanada) ilə qarşılaşıb. Gərgin keçən qarşılaşma həmyerlimizin qələbəsi ilə bitib. İpponla qalib gələn Hidayət yarımfinalda kosovalı Akil Qyakova ilə üz-üzə gəlib. Bu mərhələdə də rəqibini üstələyən cüdoçumuz adını finala yazdırıb. Həlledici mərhələdə isə rəqib fransalı Joan-Benjamin Qaban idi. Çətin keçən qarşılaşmada rəqibinə ippon fəndi ilə qalib gələn Hidayət Olimpiya çempionu oldu. Bununla da Hidayət Heydərov bir il ərzində həm Avropa, həm dünya, həm də Olimpiya çempionu olmaqla "qızıl het-trik"ə imza atdı.



Növbəti qürur dolu anları Azərbaycana cüdoçumuz Zelim Kotsoyev yaşadıb. Belə ki, təmsilçimiz Fransanın paytaxtı Parisdə növbəti qızıl medalı qazanaraq, Dövlət himnimizi səsləndirib, bayrağımızı hamıdan yüksəkdə dalğalandırıb.

Azərbaycan millisinin Yay Olimpiya Oyunlarında medal ümidlərindən sayılan və 100 kiloqram çəki dərəcəsində yarışan Zelim Kotsoyev 1/8 finalda Polşa idmançısı Pyotr Kuçera ilə qarşılaşıb. Təmsilçimiz ilk görüşündə ipponla qalib gələrək 1/4 finala yüksəlib. Bu mərhələdə onun rəqibi israilli Peter Paltçik olub. Dünya çempionumuz bu görüşü də qalib başa vuraraq adını yarımfinala yazdırıb.

Cüdoçumuz finala gedən yolda özbəkistanlı Muzaffarbek Turoboyevlə qarşılaşıb. Rəqibinə qalib gələn idmançımız finala çıxıb. Kotsoyev çempionluq görüşündə gürcüstanlı İlya Sulamanidze ilə güləşdən qalib ayrılaraq Olimpiya çempionu adına sahib olub.

Boksçumuz Loren Alfonso Dominqes (92 kq) və taekvondoçumuz Qaşım Maqomedov (58 kq) "Paris-2024"ü gümüş medalla başa vurdular. Yunan-Roma güləşçisi Həsrət Cəfərov (67 kq), sərbəst güləşçilər Giorgi Meşvildişvili (125 kq) və Maqomedxan Maqomedov (97 kq) ölkəmizin aktivinə bürünc medalları yazdırdılar.

Prezident İlham Əliyev deyib ki, ilin ən böyük yarışı Yay Olimpiya Oyunları idi və burada Azərbaycan tarixi nəticə əldə edib: "Azərbaycan müstəqil ölkə kimi 1996-cı ildən Olimpiya Oyunlarında iştirak edir və bu dəfə ən yüksək yerə layiq görülmüşdür, komanda hesabında Azərbaycan 30-cu yerdə qərarlaşmışdır. Bu, ən yüksək nəticədir. Bütövlükdə iki yüzdən çox milli komanda Olimpiya Oyunlarında iştirak edirdi. Onların arasında 30-cu olmaq çox böyük nailiyyətdir. Müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə idi. Nəzərə alsaq ki, dünyada 60-a yaxın müsəlman ölkəsi var, bu da böyük və tarixi nailiyyətdir. Komandamız ikisi qızıl, ikisi gümüş, üçü bürünc olmaqla yeddi medal qazanaraq ölkəmizin idman şöhrətini bir daha yüksəklərə qaldırmışdır".

Eyni zamanda ötən il Azərbaycan nüfuzlu beynəlxalq yarışların keçirildiyi məkan olub. 2024-cü il ərzində Bakı şəhəri çövkən üzrə dünya çempionatına, "TeamGym" üzrə Avropa çempionatına, atıcılıq üzrə dünya kubokuna, bədii gimnastika üzrə Avropa kubokuna, cüdo üzrə Böyük Dəbilqə turnirinə, güləş üzrə Avropa Olimpiya Təsnifat turnirinə, şahmat üzrə "Baku Open 2024" beynəlxalq festivalına, güləş üzrə U-23 Avropa çempionatına, "Formula-1" Azərbaycan Qran-prisinə və digər yarışlara ev sahibliyi edib.

Təkcə paytaxtda deyil, regionlarda, eləcə də işğaldan azad edilmiş şəhərlərdə də beynəlxalq yarışlar təşkil olunub. Xankəndi şəhərində Xankəndi-Bakı ultramarafonu, Şuşa şəhərində "Vüqar Həşimov Memorialı-2024" beynəlxalq şahmat turniri, Füzuli və Mingəçevir şəhərlərində Beynəlxalq Avarçəkmə reqatası və digər beynəlxalq yarışlar uğurla təşkil edilib. 2024-cü ilin "İdman paytaxtı" Qubada "Ulduz cup" beynəlxalq futbol turniri, Göygöldə cüdo üzrə kadetlər arasında Avropa kuboku uğurla keçirilib.

Bu gün Azərbaycan idmanı tarixinin çox şərəfli və tərəqqi dövrünü yaşamaqdadır. Bütün bu nailiyyətlər Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi xüsusi diqqət və qayğının bəhrəsidir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*



## *Faiq QARAYEV:* "Polina Rəhimovanı Avropa çempionatına saxlamaq istəyirik"



"Avropa Qızıl Liqası Avropa çempionatına hazırlaşmaq üçün yaxşı turnirdir". Bu sözləri AZƏRTAC-a açıqlamasında qadın voleybolçulardan ibarət Azərbaycan millisinin baş məşqçisi Faiq Qarayev deyib.

Təcrübəli mütəxəssis yaxşı komanda formalaşdırmaq üçün yerli və xarici çempionatlarda iştirak edən azərbaycanlı voleybolçuları yaxından izlədiklərini bildirib: "Gənc və təcrübəli voleybolçular diqqətimizdədir. Zədəli və klubundan milliyə buraxılmayan oyunçuları nəzərə alacağıq. Avropa Qızıl Liqasında ən çox gənclərə üstünlük verəcəyik. Ötən il bu yarışda gənclərlə oynadıq və pis təsir bağışlamadıq. Mübarizə aparacağıq. Hədəfimiz yaxşı təcrübə toplamaqdır".

O, Polina Rəhimovanın yenidən milli komandaya qayıdacağını söyləyib: "Polina hazırda Braziliyanın "Osasko" komandasında özünü çox yaxşı tərəfdən göstərir. Hiss olunur ki, rejiminə yaxşı fikir verir. Onu AVRO-2026-ya saxlamaq istəyirik. Həmin heyətdə o da bizimlə olacaq".

64 yaşlı çalışdırıcı "Yığmada milliləşdirilmiş oyunçular olacaq" sualına belə cavab verib: "Biz heç vaxt kənardan hazır oyunçu gətirməmişik. Ancaq uzun müddət Azərbaycanda oynayan və perspektiv vəd edən legioner voleybolçulara hər zaman milli komandanın qapıları açıqdır".

Qeyd edək ki, Azərbaycan millisi Avropa Qızıl Liqasında Macarıstan, Sloveniya, Slovakiya, Monteneqro, Rumıniya və Xorvatiya ilə üz-üzə gələcək. Turnirdə ilk 4 yeri tutan yığmalar "dördlər finalı"na yüksələcəklər. Turnir bu il mayın 30-dan iyulun 6-na kimi keçiriləcək.

## Azərbaycan boksçusu beynəlxalq turnirə qələbə ilə start verib



**Monteneqronun Budva şəhərində gənc boksçular arasında Dünya Kuboku statuslu "Adriatik incisi" beynəlxalq turnirinə start verilib.**

Boks Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, yarışın ilk günündə Azərbaycan millisinin bir idmançısı rinqə çıxıb.

54 kiloqram çəkidə mübarizə aparan Zidan Hümbətov 1/8 finalda qazaxıstanlı Almaz Nurlanla qarşılaşıb. O, rəqibini 3:1 (28:28, 29:28, 28:29, 30:27, 29:28) hesabı ilə məğlub edib. Z.Hümbətov növbəti görüşündə qırğızıstanlı İlgiz Korqonbayevlə gücünü yoxlayacaq. Döyüş martın 6-da olacaq.

Qeyd edək ki, martın 9-da başa çatacaq yarışa Azərbaycan millisi 3 oğlan, 4 qız boksçu ilə yollanıb.

## *"Karvan" klubunun rəsmisi:* "Bölgə klublarının Premyer Liqada olması Azərbaycan çempionatına marağı artıracaq"



"Növbəti mövsüm Premyer Liqada komanda sayının artması bizim üçün möhtəşəm xəbər oldu". Bu sözləri AZƏRTAC-a açıqlamasında Yevlaxın "Karvan" komandasının Mətbuat xidmətinin rəhbəri Bəhruz Musayev deyib.

O bildirib ki, bölgə klublarının əsas liqada olması Azərbaycan çempionatına yüksək səviyyədə maraq qatacaq: "Klub olaraq bu qərara çox sevindik. İndi bundan sonra irəli addım atmalıyıq. Stadionun ot örtüyü ilə bağlı bizə çoxlu suallar ünvanlanır. Hava şəraiti tam düzəldikdən sonra arena ilə bağlı işlərə start verəcəyik. Ot örtüyü ilə yanaşı, daxildə də abadlıq işləri aparılacaq. Yeni bazamızın tikintisi yekunlaşmaq üzrədir. Mart ayının sonunda açılışı nəzərdə tutulur. İkimərtəbəli binadır. Birinci mərtəbəsi iş, ikinci mərtəbə isə yataq otaqlarından ibarət olacaq. Ümumilikdə 30 otaq var. Hər otaqda iki futbolçunun qalması üçün lazımi şərait yaradılıb".

Onun sözlərinə görə, stadion bu mövsümün sonunadək hazır vəziyyətə gətiriləcək: "Əlbəttə ki, müəyyən çatışmazlıqlar olacaq. Bu da zamanla öz həllini tapacaq. Peşəkar Futbol Liqasının əməkdaşları da bu yaxınlarda Yevlax şəhər stadionunda oldular və çatışmazlıqları bizə bildirdilər. Bunları aradan qaldırmağa çalışacağıq".

B.Musayev klubun sponsor məsələsinə də toxunub: "Bildiyiniz kimi, I Liqada sponsoru olan 3-4 klubdan biri də "Karvan"dır. Klub prezidenti tərəfindən hər cür dəstək göstərilir. Düşünürəm ki, Premyer Liqaya vəsiqə qazansaq və daha bir sponsorla anlaşsaq, maliyyə dayaqları güclü olan kollektivə çevrilə bilərik".

Qeyd edək ki, I Liqada XVI turdan sonra 30 xal toplayan "Karvan" komandası turnir cədvəlinin 3-cü pilləsində qərarlaşıb.





# Mədəniyyət





Bahar gəldi, yaz gəldi

# Günəşin mifik rəmzi

**Mifoloji-tarixi yaddaş kodunu qoruyub saxlayan Novruz bayramı ərəfəsində Boz aya daxil olan çərşənbələrin ikincisi Od çərşənbəsi, yaxud "Üskü çərşənbə", "Atəş çərşənbə", "Xızır çərşənbə", "Üskü gecəsi", "Addı çərşənbə"dir. Od, istilik yaradılışın dörd ünsüründən biridir. Odun, atəşin yaranma tarixi çox qədimdir.**



Hələ ibtidai dövrlərdə insanlar şimşək çaxanda, vulkan püskürəndə, yaxud üzvi maddələrin öz-özünə yanması nəticəsində əldə etdikləri oddan gündəlik həyatda istifadə etmiş, odu sönməkdən qorumuşlar. Bu, ibtidai insanı digər canlılardan fərqləndirən əsas faktorlardan biri olmuş, daha sonralar nitq və danışıq mədəniyyəti formalaşmışdır. Tarixi qaynaqlara görə, insanın təbiət üzərində ilk qələbəsi olan od onun şüurunda və həyatında böyük dəyişikliklər yaratmış, artıq Aşel mədəniyyəti dövründə süni odalma məişətə daxil olmuşdur.

Dünya xalqlarının mifoloji təfəkküründə odun sakrallığı ilə bağlı süjetlər yaranmışdır ki, bunlar arasında yunan mifologiyasında Prometeyin odu oğurlamasını əks etdirən mətnlər xüsusi yer tutur. Odla bağlı mifik düşüncə daha sonra folklora transformasiya olunmuşdur.

Türkdilli xalqların mifik təsəvvürlərində, Azərbaycan folklorunda Od, Atəş və Günəşin sakrallığını, insan həyatındakı əhəmiyyətini səciyyələndirən ayin, etiqad, mərasimlər sistemi yaranmışdır. Təsadüfi deyildir ki, oda, Günəşə inamla bağlı Ulgen tanrısına müraciətlər olunmuş və ona sitayiş edilmişdir.

Odu müqəddəs sayan əcdadlarımız sübh tezdən Günəşi qarşılamağa gedər, hündür bir təpənin üstündə tonqallar qalayar, tonqaldan məşəl götürüb evindəki ocağa od salar, möhtəşəm şadlıq məclisləri təşkil edib "Qodu-Qodu" mərasimini icra edərdilər... Mənbələrdə göstərilir ki, "Qodu-Qodu", "Hodu-hodu", "Dodu-Dodu", "Güdü-Güdü" erkən dövr dünyagörüşündə Günəş tanrısının adını ifadə edir. "Qodu-Qodu" mərasimi yağışın kəsilməsi və Günəşi çağırmaqla bağlı mövsüm mərasimlərindəndir. Mifik təsəvvürlərində antropomorfik görüşləri ifadə edən nəğmələr də vardır ki, bunlar Günəşə inamla bağlı motivləri qabarıq şəkildə səciyyələndirir, məsələn, "Gün çıx, Gün çıx" nəğməsində keçəl qız yağışın, buludun, saçlı qız isə Günəşin rəmzidir.

Od çərşənbəsində icra olunan mərasimlərdən biri "Günəşə qurban kəsmək" mərasimidir. Mərasimi icra edərkən insanlar sübh tezdən qırmızı kəhər atı Günəşə qurban aparardılar. Hündür təpənin üstündə olan at gün doğanda Günəşin şərəfinə qurban kəsilərdi. İnanca görə, əgər kəhər at Günəşə qurban kəsilərsə, Günəş Yer üzərində olan insanlara xoşbəxt həyat bəxş edər. "Günəşə qurban kəsmək" mərasimi zamanı məhz kəhər atın kəsilməsi ilə bağlı Herodotun "Tarix" əsərində göstərilir ki, "Günəş səmada çox sürətlə hərəkət edir, qırmızı kəhər at isə Yer üzərində heyvanlar arasında sürətli qaçanlardan biridir". Adıçəkilən mərasim Kəlbəcər qayaüstü rəsmlərində də öz əksini tapmışdır. Bu mərasimlərin keçirilməsi heç də təsadüfi olmamışdır. Mifoloji təsəvvürlərə görə, insanlar Günəşi, odu, atəşi nə qədər çox əzizləsələr, onun müqəddəsliyinə inansalar, o zaman Günəş Yer üzərində təbiəti, suyu, torpağı tez isidər və onlara bolluq-bərəkət, xoşbəxtlik, firavanlıq bəxş edər.

İnanca görə, Od çərşənbəsində Xızır göydən yerə enib odla, atəşlə qovuşur və bununla da hər yeri qızdırır, bu dəfə ona "Xızır-Xızır", yaxud "XızırhaXızır" deyirlər. Od çərşənbəsi axşamında çillədən, əziyyətdən qurtulub rahat həyata çatmaq arzusu ilə hər evdə "Xızır atəşi" yandırılardı ki, bu, od kimi paklanmaq, təzələnmək inamına bağlı idi.

Mənbələrdən məlum olur ki, Od çərşənbəsində "Pülənbəri" mərasimi ("Yanar körpü", yaxud "Nur körpüsü") keçirilərdi. Mərasimin qaydalarına görə, axşamüstü hündür təpədə kötükdən, yaxud quru ağacdan körpü hazırlanar, ona od vurandan sonra kiçikdən böyüyə qədər hamını, hətta mal-qaranı da həmin "yanar körpü"nün altından keçirərdilər. Orta əsrlərdə Azərbaycana gələn Avropa səyyahları Adam Oleari, Yan Streysin məlumatlarında da Şamaxı ərazisində "Puli əmbəri" adlı daş körpünün mövcudluğu təsdiqlənmişdir.

Od çərşənbəsində keçirilən qədim mərasimlərdən biri də "Təkə" mərasimidir. Mərasimdə əsasən cavanlar iştirak edər, quru ağacdan təkənin müqəvvasını düzəldib onu bəzəyərdilər, təkə ilə birlikdə çərşənbə tonqalının ətrafında nəğmələr oxuyar, rəqs edərdilər. Sonra isə təkəni götürüb bütün kəndi gəzər və "qışda yeyib şaxta təkəm, olub biz-biz tükləri təkəm, təkəmə arxalıq verin, eviniz olsun abadan" deyib mərasimi yekunlaşdırırdılar. Bundan sonra təkəçilərə çərşənbə payı verilərdi. "Təkə" mərasiminin keçirilməsi heç də təsadüfi olmamışdır. Türk xalqlarının mifik təfəkküründə keçi kult olaraq mövcud olmuşdur ki, bu həm tayfa adlarında, həm də coğrafi məkan adlarında da öz əksini tapmışdır, məsələn, Təkəli tayfası, Keçili kəndi və sairə. Hətta şumerlərdə keçi müqəddəs sayılmış, ona sitayiş etmişlər. Gəmiqaya rəsmlərində keçilər həyat ağacı ilə birlikdə təsvir edilmişdir ki, bu da məhsuldarlıq, bolluq, bərəkət rəmzini əks etdirir.

Xalq arasında ayrı-ayrı adət-ənənələr icra edilərdi ki, onların bir qismi bu gün də aktualdır. Od çərşənbəsində axşamüstü tonqallar qalanar, böyükdən-kiçiyə hamı "ağırlığım-uğurluğum odda qalsın" deyərək tonqalın üzərindən atlanar, hətta inanca görə, körpə uşaqları da tonqalın üstündən keçirmək lazımdır ki, çillədə qalmasınlar. Tonqal üzərindən atlanmaq bəzi hallarda zərdüştilik görüşləri ilə əlaqələndirilir. Lakin bu doğru deyildir. Əvvəla, zərdüştilik dövründə odu qoruyan kahinlər ağızlarını sarğı ilə bağlayırdılar ki, nəfəsləri oda, atəşə dəyməsin, çünki verilən nəfəs artıq "ölü nəfəs" hesab olunurdu. Elə bu səbəbdən də "ağırlığım-uğurluğum oda tökülsün, odda qalsın" ifadəsi zərdüştiliyə aid edilə bilməz.

Çərşənbədə tonqal qalayarkən buraya bar verən ağacın hissələrini atmaq düzgün sayılmır. Tonqalda daha çox kol-kos, quru odun parçası və qaratikan yandırılır. İnanca görə, şər qüvvələr odu söndürməyə çalışır, amma qaratikandan qorxub yaxına gələ bilmirlər. Adətən tonqala üzərlik də atılır ki, onun tüstüsü bədnəzəri məhv etsin.

İnama görə, tonqalın uzun müddət yanması xeyrə yozulur, onu yarımçıq söndürmək qadağandır. Hətta tonqal sönüb külə döndükdən sonra onu dağıtmırdılar, ətrafına üç dəfə cızıq çəkilərdi ki, bu da evdən, ailədən ruzi-bərəkətin əskik olmaması inancına söykənirdi. İnama görə, çərşənbə tonqalının külü axar suya tökülməlidir.

Zərdüştilik yaranandan sonra Günəşin, Od və Atəşin sakrallığı qorunub saxlanmış, atəşin bir neçə növü ilə bağlı mərasimlər keçirilmişdir. Zərdüştilər istiliyin ilk mənbəyini Ağacın gövdəsində olan istiliyi hesab edir, onun şərəfinə "Şəhrivər", insan bədənində və təbiətdəki istiliyin şərəfinə "Səddə", Günəş istiliyilə bağlı "Azərcan", ocaqlarda, atəşgahlarda olan istiliyin şərəfinə "Çırağan" mərasimlərini qeyd etmişlər.

Azərbaycanın müxtəlif bölgələrində Od çərşənbəsində süfrəyə paxlaplov və quru meyvələrdən ibarət çərşənbə xonçası qoyulur. Günəşin, atəşin rəmzi kimi şamlar, çıraqlar yandırılır. Etiqada görə, evin künclərinə də şamlar, çıraqlar, çıraqların yanına da güzgülər qoyulardı ki, çırağın işığı daha da artsın, bayram əhvali-ruhiyyəsi hiss edilsin. Bu ayin "üskübəzəmə" adlanır. Bu ayini çox zaman evin sonbeşiyi icra edərdi, çünki sonbeşik ocaqda qalıb nəsli, soyu davam etdirəndir.

Məlumdur ki, xalq arasında oda salavat verilmiş, insanın yaşadığı yerə də "ocaq" deyilmişdir. Folklor yaradıcılığında odla bağlı "Odu közərtmək" oyunu geniş yayılmışdır ki, bu oyunun mahiyyətinə görə, yağışlı, soyuqlu, çovğunlu havalarda belə od qorunur və odun sönməsinə izn verilmir. Odun sakral mahiyyəti folklor mətnlərində də qorunub saxlanmışdır:

*Düşən yeri...*
*Atlanıb düşən yeri*
*Göz yaşım oda dönüb,*
*Yandırır düşən yeri.*

* * *

*Suda yandı...*
*Od yandı, su da yandı.*
*Dərdimi suya dedim,*
*Od tutdu, o da yandı...*

* * *

*Köynəyin gülü yansın,*
*Od tutsun, gülü yansın,*
*Səni məndən edənin,*
*Ağzında dili yansın.*

* * *

*Od imandandır.*
*Od küldə gizlənər.*
*Oda yanmayan balasına da yanmaz.*
*Od ocaqda yanar.*
*Od adamı həm qızdırır, həm də yandırır.*
*Oda dərdini deyən xeyir aparar.*

*Od çərşənbəsində ocağı boş qoymazlar.*
*Od çərşənbəsində ocaqdan od verməzlər.*
*Ocağın külün dağıtmazlar.*

*Ocağı şər vaxtı dağıtmazlar.*
*Od çərşənbəsində ağlayan ağacı kəsən sonsuz qalar*
*Ocaq istisini sevən od-ocaqlı olar.*

*Ocaq yananda səslənirsə, demək, kimsə sözünü danışır.*
*Od hisli olarsa - uzaqdan qonağın gələcək - deyərlər.*
*Ocaqda kül titrəyəndə - Od xeyrə oynayır - deyərlər.*
*Gün doğanda ziyarətə yola düşərlər.*
*Gün düşən yerdə xəstəlik olmaz.*
*Gün doğanda doğulan uşaq cəngavər olar.*

*Od haqqı!*
*Ocaq haqqı!*
*İşıqlığa çıxasan!*
*Gün haqqı!*
*Ocağın bərəkətli olsun!*

Təsadüfi deyildir ki, od-ocaq kultu Qobustan qayaüstü rəsmlərində də özünə yer almışdır. Bu isə türkdilli xalqların mifik dünyagörüşündə Günəş-Od-Atəş silsiləsinin əhəmiyyətini bir daha təsdiqləyir.

***Ülkər NƏBİYEVA,***
***Bakı Dövlət Universitetinin professoru, filologiya üzrə elmlər doktoru***

İncəsənət xadimləri

# Görkəmli plakat ustası

**XX əsr Azərbaycan təsviri sənətinin inkişafında onun da xidmətləri olub. Söhbət təsviri sənətin qrafika və rəngkarlıq sahələrində bir sıra uğurlu əsərlər yaratmış, bu il 90 illk yubileyi qeyd olunan Xalq rəssamı Cabbar Ağadadaş oğlu Qasımovdan gedir. C.Qasımov Bakıda - İçərişəhərdə anadan olmuşdur. İncəsənətə kiçik yaşlarından maraq göstərən C.Qasımov əvvəlcə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda (1952-1956), sonra isə V.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda ali təhsil almışdır (1958-1963). O, Moskvada məşhur qrafika ustası M.Çeremnıxın emalatxanasında qrafika sənətinin incəliklərini öyrənmişdir.**



Moskvadakı təhsil illəri, orada yerləşən muzeyləri ziyarət və məşhur rəssamların əsərləri ilə tanışlıq rəssamın taleyində xüsusi rol oynamışdır. C.Qasımov hələ tələbəlik illərindən sərgilərdə iştirak etməyə başlamışdır. Təhsilini bitirib Bakıya dönən gənc peşəkar rəssam kimi fəaliyyətini uğurla davam etdirmişdir. O, təsviri sənətin dəzgah və kitab qrafikası, eləcə də dəzgah rəngkarlığı və monumental rəngkarlıq sahələrində diqqəti cəlb edən, bədii və texniki işlənilmə xüsusiyyətləri ilə seçilən çoxsaylı sənət nümunələri yaratmışdır. C.Qasımov əsasən istedadlı plakat ustası kimi şöhrət qazanmışdır. Rəssam bütöv yaradıcılığı boyu plakat janrına sadiq qalmış və yüzlərlə uğurlu əsər yaratmışdır. O, tələbəlik illərindən - 1959-cu ildən sərgilərdə iştirak etmişdir. 1965-ci ildən Azərbaycan Rəssamlar İttifaqına üzv qəbul edilən rəssam sonradan ittifaqın Plakat bölməsinin sədri və Rəyasət Heyətinin üzvü seçilmişdir. Dövlətimiz tərəfindən C.Qasımovun bədii və pedaqoji yaradıcılıq fəaliyyəti yüksək qiymətləndirilərək ona "Əməkdar rəssam" (1982) və "Xalq rəssamı" (2002) fəxri adları verilmişdir. Müxtəlif vaxtlarda rəssamın respublika və beynəlxalq əhəmiyyətli sərgilərdə nümayiş olunan plakat əsərləri diplom və mükafatlara layiq görülmüşdür.

C.Qasımov yaratmış olduğu uğurlu əsərləri ilə ölkəmizin ən məşhur plakat rəssamı kimi özünü təsdiq etmişdir. Onun müxtəlif mövzularda işləmiş olduğu plakatlar məna dolğunluğu, yüksək bədii aydınlığı, lakonik ifadəsi və bədii estetik təsir gücü ilə diqqəti cəlb edir. Bu cür plakat əsərlərindən "Dənizi fəth edənlər", "Yeni idman nailiyyətlərinə doğru!", "Məqsədimiz qoruyub-yaratmaq!", "Sülhün keşiyində!", "Bizim əməyimiz sülh işinə xidmət edir!", "Neft daşları fəxrimizdir!", "Mənziliniz mübarək!", "İdman şərəfi uğrunda!", "Sülh səadətdir", "Əməyə eşq olsun!" (triptix), "Neft", "Pambıq sərvətimizdir!", "Neft xalqın sərvətidir!", "Sülhü qoruyaq!", "Xoş gəlmisiniz!", "Bol məhsul verək", "Qoy bol olsun elin varı!", "Dostluq", "Zərbəçi əmək", "Ölkəyə ildən-ilə daha bol üzüm verək!", "M.Ə.Rəsulzadə", "Xalq yazıçısı İlyas Əfəndiyev" və digərlərinin adlarını qeyd etmək olar.

Rəssamın əsərlərinin adlarına nəzər yetirdikdə aydın olur ki, o, müxtəlif mövzularda - siyasi, elmi, sənaye, kənd təsərrüfatı və başqa sahələrdə zəhmətin təbliği və təşviqi istiqamətində nəzər-diqqəti cəlb edən plakatlar yaratmışdır. Plakatın özünün xüsusi dili var. Belə ki, rəssam mövzudan kənar detallardan imtina etməli, obrazı ümumiləşdirmə yolu ilə mövzunun bədii həllini icra edib əsərin əsas ideyasını açıb göstərməlidir.





Bu baxımdan rəssamın plakatlarının bədii texniki işlənilmə mükəmməlliyi və kəskin bədii estetik dili tamaşaçının diqqətini özünə cəlb edir. C.Qasımovun bəzi plakat əsərləri sovet siyasi ruhunda olması, mövzu və ideya baxımından günümüzlə səsləşməsə də ustalıqla işlənilməsi baxımından fərqlənirlər. Sənətşünas Paşa Hacıyev rəssamın yaradıcılığı barədə belə yazırdı: "Azərbaycan plakat sənətinin inkişafını və gələcək perspektivlərini C.Qasımovun plakatlarından ayrı təsəvvür etmək mümkün deyil. Təsviri sənətimizin mübariz janrına gətirilən ən əhəmiyyətli xüsusiyyətlər - yüksək ideyalılıq və parlaq bədii obrazlılıq, yeni insanın zəngin mənəvi aləminin poetik ifadə vasitələri ilə təcəssümü, aktual siyasi mövzuların simvolik və lakonik formalarda inikası, müsbət qəhrəman probleminin layiqli həlli C.Qasımovun əsərlərində özünü bu və ya digər şəkildə göstərir".

C.Qasımovun dəzgah qrafikası sahəsində ərsəyə gətirdiyi "Qüllə" ofortunu, "Gecə" və "Bahar" lioqravüralarını, eləcə də "Abşeron motivləri", "Qız qalası", "Abşeron bağları", "İçərişəhər" adlı rəsmlərinin adlarını qeyd etmək olar. Rəssamın Abşeron, İçərişəhər mövzulu rəsmləri onun bədii müşahidə qabiliyyətinin, tarixi İçərişəhərin memarlıq abidələrinə, Abşeron təbiətinə rəssam baxışının mahiranə münasibətinin nəticəsidir. C.Qasımovun "Bolqarıstan silsiləsindən" adlı rəsmləri xüsusilə diqqətimizi cəlb edir və özünün mükəmməl texniki və bədii işlənilmə həlli ilə xüsusi əhəmiyyət daşıyır. 1964-cü ildə nəşr olunmuş Xalq şairi Qabilin "Fəxrəddinin səyahəti" adlı uşaqlar üçün şeir kitabçasına C.Qasımov tərəfindən çəkilmiş maraqlı rəsmlər şairin sözlə ifadə etdiyi süjetin uşaqların əyani qavramaları üçün rəssamın uğurlu töhfəsidir.

C.Qasımov müstəqillik illərində dəzgah rəngkarlığında sənət lövhələrinin yaradılmasına daha çox üstünlük vermişdir. Rəssamın rəngkarlıq əsərlərinə tamaşa edəndə kompozisiya, kolorit və mövzu zənginliyi ilə işlənilmiş bir sıra mənzərə əsərlərini müşahidə edə bilərik. Mənzərə janrına üstünlük verən rəssam daha çox İçərişəhəri, köhnə Abşeron mənzərələrini yüksək sənət ustalığı ilə kətanda canlandırmışdır.

C.Qasımov monumental rəngkarlığı sahəsində Rasim Xələfovla birlikdə "İnqilab Bakısı" adlı mozaik və "Mənim respublikam" adlı döymə üsulu ilə (çekanka) yaradılmış pannolar ərsəyə gətirmişdir.

Professor C.Qasımov bədii yaradıcılıq fəaliyyəti ilə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olmuş, uzun illər Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində tələbələrə rəssamlıq sənətinin sirlərini tədris etmişdir.

Bu il 90 illik yubileyi tamam olan Xalq rəssamı Cabbar Qasımov bədii yaradıcılıq fəaliyyəti və əsərləri ilə sənətsevərlərin yaddaşında yaşayacaqdır.

***Əsəd QULİYEV,***
***Rəssamlar İttifaqının üzvü, sənətşünas***

## Vyanada Vaqif Mustafazadənin 85 illiyinə həsr olunmuş konsert keçirilib



**Vyanada Azərbaycan Mədəniyyət Mərkəzində görkəmli caz pianoçusu və bəstəkarı, ölkəmizdə caz musiqisinin banilərindən biri, Əməkdar incəsənət xadimi Vaqif Mustafazadənin 85 illiyinə həsr olunmuş etno-caz konserti təşkil olunub.**

Tədbiri Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova açaraq Vaqif Mustafazadənin həyat və yaradıcılığına nəzər salıb. Qeyd edilib ki, muğam-caz janrının yaradıcısı kimi tanınan V.Mustafazadənin Azərbaycan musiqi tarixində özünəməxsus yeri var, onun əsasını qoyduğu musiqi istiqaməti və ifa tərzi ölkəmizin hüdudlarından uzaqlarda da şöhrət tapıb və bu gün də müxtəlif musiqiçilər tərəfindən uğurla davam etdirilir. Bu gün müasir Azərbaycan caz ifaçılığının inkişafını Vaqif Mustafazadə olmadan təsəvvür etmək mümkün deyil.

Tədbirin bədii hissəsində Azərbaycan caz ifaçıları Sonai (vokal), Tural Rafael (fortepiano) və Ələfsər Rəhimov (balaban, zurna və tütək) konsert proqramı ilə çıxış ediblər. Konsertdə Vaqif Mustafazadə ilə yanaşı, digər Azərbaycan bəstəkarlarının repertuarından əsərlər, eləcə də xalq mahnıları və rəqsləri ifa edilib. Tural Rafael və Ələfsər Rəhimovun bəstələdiyi kompozisiyalar, Sonainin məlahətli səslə ifa etdiyi "Könlümün yadigarı", "Laylalar", "Bana, bana gəl", "Pıçıldaşın ləpələr", "Çiçək kimi", "Girdim yarın bağçasına" kimi bəstəkar və xalq mahnıları böyük maraq və sürəkli alqışlarla qarşılanıb.

## Azərbaycan Milli Xalça Muzeyində "Min naxış bir çul üstündə" sərgisi açılıb



**Azərbaycan Milli Xalça Muzeyində "Min naxış bir çul üstündə" sərgisi açılıb.**

Muzeydən bildirilib ki, sərgidə muzeyin kolleksiyasında yer alan, ölkəmizin müxtəlif guşələrində - Bakı, Şirvan, Qazax və Qarabağda toxunmuş bir-birindən gözəl, zəngin naxışlı 25 çul nümunəsi təqdim edilir.

Çul müxtəlif minik və ya yük daşıyan ev heyvanlarının (at, dəvə, eşşək, öküz və s.) belini örtmək, bəzən də onları bəzəmək üçün toxunan örtükdür. Azərbaycanda çul əsasən xovlu və xovsuz xalçatoxuma texnikası, bəzən də tikmə (güləbətin, təkəlduz, cülmə), qurama üsulları ilə istehsal olunurdu. Mərasimlərdə, el bayramlarında at və dəvələrin əzəmətli, yaraşıqlı görünməsi üçün üstlərinə çul salınırdı. Qışda isə çuldan heyvanları soyuqdan qorumaq üçün istifadə edilirdi. Cənubi Azərbaycanın Maku şəhərindən tapılmış eradan əvvəl II minilliyə aid gildən düzəldilmiş at fiqurunun üzərindəki gül-çiçək bəzəkli çul rəsmi, Urmiya gölü yaxınlığındakı Həsənli təpəsində aşkarlanmış eradan əvvəl I minilliyə aid qızıl camın səthindəki aslan təsvirinin üstündə çulun olması bu xalça məmulatının tarixinin qədimliyini sübut edir. Təbriz miniatür sənətinin tanınmış nümayəndələrinin yaratdıqları əsərlərdə də zəngin naxışlı çul təsvirlərinə rast gəlinir.

Orta əsrlərdə hökmdar və saray əyanlarının atları üçün xüsusi sifarişlə toxunan çullar yun, rəngbərəng ipək, bəzən də qızıl, gümüş saplardan hazırlanır, daş-qaşla bəzədilirdi.

"Min naxış bir çul üstündə" sərgisi aprelin 1-dək davam edəcək.

# Professor Kamal SOLTANOV: "Qırx ildən çoxdur ki, "Dirixle" məsələsinin zəif həllərinin yeganəliyi üzərində işləyirdim"

"Təxminən 40 ildən çoxdur ki, mən "Navier-Stokes" tənlikləri üçün qoyulmuş "Dirixle" məsələsinin zəif həllərinin yeganəliyi üzərində işləyirdim. Bu tənliklər hidrodinamikanın əsas riyazi modeli olduğundan və həyatda axınlar hər yerdən olduğundan onun öyrənilməsi vacib məsələlərdən biridir".



AZƏRTAC xəbər verir ki, bu sözləri riyaziyyatçı-alim, professor Kamal Soltanov AMEA-da keçirilən "Navye-Stoks bərabərliyi" tənliyi barədə təqdimatda deyib. Alim qeyd edib ki, bu tənliklərlə bağlı problem Kley İnstitutunun qoyduğu minilliyin 7 problemindən biridir. Dünyada bu problem alimlər tərəfindən araşdırılmaqdadır.

"Navye-Stoks bərabərliyi" tənlikləri üçün qoyulmuş "Dirixle" məsələsinin zəif həllərinin mövcudluğu 3 ölçülü durum üçün 1932-ci ildə Leray tərəfindən, daha sonra 1934-cü ildə Hopf-Leray tərəfindən göstərilib və həllər fəzası təyin edilib.

# Ukraynanın müxtəlif şəhərlərində Xocalı soyqırımının qurbanları yad edilib



Ukraynanın bir sıra şəhərlərində Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar anım tədbirləri keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, Krivoy Roq şəhərində Azərbaycan diasporunun fəalları həm Xocalı soyqırımına, həm də Qolodomor qurbanlarına ehtiram əlaməti olaraq "Qolodomor" abidə kompleksinə əklil və gül dəstələri qoyub, soyqırımı qurbanlarının əziz xatirəsini birdəqiqəlik sükutla yad ediblər.

Sonra tədbir iştirakçılarına Xocalı faciəsinin tarixi haqqında ətraflı məlumat verilib.

Xocalı soyqırımı qurbanlarının xatirəsi Xarkov şəhərində də anılıb. Tədbirdə Azərbaycanın Xarkovdakı fəxri konsulu Əfqan Salmanov, Albaniyanın Xarkovdakı fəxri konsulu Şahin Ömərov, Xarkov Vilayət Dövlət Administrasiyasının İnvestisiya və xarici iqtisadi fəaliyyət idarəsinin Xarici iqtisadi əlaqələr və beynəlxalq münasibətlər şöbəsinin müdiri İnessa Qluşenko, Xarkov vilayətinin "Dostluq" cəmiyyətinin sədri Murad Ömərov, Ukraynanın Xalq rəssamı Katib Məmmədov, elmi institutların nümayəndələri, yaradıcı və təhsil ictimaiyyətinin üzvləri, eləcə də Xarkov sakinləri iştirak ediblər.

Tədbirdə çıxış edənlər erməni separatçılarının Xocalıda törətdikləri cinayətlərin amansızlığının, bu faciənin nəticələri və günahsız insanların qətlə yetirilməsinin dünya tərəfindən soyqırımı aktı kimi tanınmasının vacibliyini vurğulayıblar.

Daha sonra Xocalı soyqırımı haqqında sənədli film nümayiş etdirilib.

Sonda tədbir iştirakçıları Xarkov İnformasiya-Sərgi Mərkəzinin "Buzok" qalereyasında Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunan fotosərgiyə baxıblar.

# İsrail portalı Xocalı soyqırımından yazıb




İsraildə fəaliyyət göstərən "Israel National News Arutz Sheva" xəbər saytında Xocalı soyqırımı ilə bağlı "Paylaşılan ağrı. Yəhudi icmaları soyqırımı qurbanlarının xatirəsini yad edir" sərlövhəli məqalə yayımlanıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, məqalədə İsraildə və dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanəsilli minlərlə yəhudinin 33 il əvvəl Xocalıda törədilən qətliam qurbanlarının xatirəsini yad etdiyi bildirilir. Qeyd olunur ki, yəhudi icmaları Xocalıda həlak olanların xatirəsinə ehtiram əlaməti olaraq şamları yandırır, dualar oxuyur və mərasimlər keçirirlər.

Bakıdakı Səfərad icmasının ravvini Zamir İsayev İsraildə 2023-cü il oktyabrın 7-də baş vermiş qətliam zamanı azərbaycanlıların İsrailə böyük dəstək nümayiş etdirdiklərini vurğulayıb. Ravvin rəhbərlik etdiyi yəhudi məktəbində Xocalı qurbanlarının xatirəsinə həsr olunan anım mərasimi keçirildiyini də diqqətə çatdırıb.

Məqalədə xüsusi qeyd olunur ki, Azərbaycanda İsrail dövlətinə və yəhudilərə münasibətdə həmrəylik nümayiş etdirilir.

Materialda İsraildə Xocalı faciəsinin anım mərasimini təşkil edən "Azİz" İsrail - Azərbaycan Xalqlararası Əlaqə" Assosiasiyasının prezidenti Adam Amilovun bu fikirləri də yer alıb: "Azərbaycan və İsrailin ortaq ağrıları iki xalq arasında ümid və birlik körpüsünə çevrilib, beynəlxalq arenada diplomatik əlaqələri və qarşılıqlı dəstəyi gücləndirib".


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Türkiyənin sülh səylərində yeni mərhələ

## PKK-nın ləğv edilməsi "terror divarı"nın yıxılması üçün tarixi fürsətdir

1999-cu ildən Türkiyə məhkəməsinin qərarı ilə ömürlük həbs cəzası çəkən PKK terror qruplaşmasının lideri Abdullah Öcalan təşkilatın bütün qruplarını ləğv etməyə və 40 ildən artıq davam edən terrorculuğa son qoymağa çağırıb. O, həbsxanadan göndərdiyi məktubda bildirib ki, bütün qruplar silahı yerə qoymalı, PKK isə özünü buraxmalıdır.






Terrorçuların başçısı Abdullah Öcalan Millətçi Xalq Partiyasının (MHP) lideri Dövlət Baxçalının çağırışı, həmçinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və digər siyasi partiyaların dəstəyini onun müraciətinə şərait yaratdığını qeyd edib və bu çağırışa görə "tarixi məsuliyyəti" üzərinə götürdüyünü bildirib.

Türkiyə, ABŞ və Aİ tərəfindən terror təşkilatı elan edilən PKK 40 illik qanlı kampaniyası zamanı aralarında qadın, uşaq və qoca da daxil olmaqla 40 mindən çox insanın həyatına son qoyub.

PKK həmçinin Öcalanı Mərmərə dənizindəki adada yerləşən İmralı həbsxanasından azad etməyə çağırıb ki, o, yaraqlıların silahı yerə qoymasına səbəb olacaq bir partiya qurultayına "şəxsən rəhbərlik etsin və keçirə bilsin".

Türkiyə dövləti ilə PKK arasında sülh təşəbbüsü oktyabr ayında Ərdoğanın koalisiya ortağı Dövlət Baxçalı tərəfindən irəli sürülüb və o, terror qruplaşmasının zorakılıqdan əl çəkib özünü buraxacağı təqdirdə Öcalanın vaxtından əvvəl azadlığa buraxılmasını təklif edib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Öcalanın mesajının Türkiyənin sülh səylərində "yeni mərhələ" olduğunu deyib və bildirib ki, türk və kürd xalqlarının minillik qardaşlığı arasında dayanan terror divarını yıxmaq üçün tarixi addım atmağa fürsət yaranıb. O, Türkiyənin təkcə regionun ən güclüsü deyil, həm də sərhədləri daxilində və hüdudlarından kənarda terrorla mübarizədə dünyanın ən qüdrətli, bacarıqlı və qərarlı ölkələrindən biri olduğunu vurğulayıb.

Ərdoğan Dolmabaxçada şəhid ailələri ilə iftarda deyib: "Əgər verilən vədlər yerinə yetirilməsə və proses ləngimələrə, aldatmalara, manipulyasiyalara, adların dəyişdirilməsinə və köhnə üsulların davamına çevrilərsə, bunun nəticələrinə görə məsuliyyət bizim üzərimizdə olmayacaq. Əməliyyatlarımızı davam etdirəcəyik və lazım gələrsə, sonuncunu yox edənə qədər hər bir terrorçunu daş-qalaq, çiyinlərində baş qoymadan məhv edəcəyik".

Türkiyə lideri qeyd edib ki, dövlətin öz gücünə inamı problemlərin sülh yolu ilə həlli üçün tarixi addımlar atmağa imkan verir: "İndi biz hadisələrə kənardan baxmırıq, ölkənin qədim dövlətçiliyini, maraqlarını rəhbər tutaraq hərəkət edirik. Biz kiminsə gündəminə uyğunlaşmırıq, tarixin gedişatını Türkiyənin xeyrinə dəyişən siyasəti qətiyyətlə həyata keçiririk".

Öcalanı həbsxanada ziyarət edən Xalqların Demokratik Partiyasının (HDP) üzvü Sırrı Süreyya Öndər bu günlərdə hökumət rəsmiləri və siyasətçilərlə bir sıra görüşlərin planlaşdırıldığını və çox şeyin daha aydın və konkret olacağını bildirib. O ümid edir ki, qarşıdakı üç ayda hər şey yoluna qoyulacaq.

Bunun ilə həm Türkiyədə, həm Suriyada, həm də İraqda PKK-ya bağlı bütün qruplar ləğv ediləcək.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

**tabeliyində Sosial Xidmətlər Agentliyi "Novruz bayramı münasibətilə Şəhid övladları üçün bayram tədbirlərinin təşkili" (Bakı, Abşeron, Sumqayıt, Gəncə və respublikanın digər şəhər və rayonları üzrə) və "Novruz bayramı münasibətilə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün bayram tədbirlərinin təşkili" (Bakı, Abşeron, Sumqayıt, Gəncə və respublikanın digər şəhər və rayonları üzrə) adlı**

***müsabiqələr keçirir***

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 14 mart 2025-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 17 mart 2025-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)**

***Müsabiqə komissiyası***

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və Katibliyin rəhbərliyi Real Təhlil İnformasiya Mərkəzinin baş direktoru Mirşahin Ağayevə atası

**MİRDİLAVƏR AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Biznesin İnkişafı Departamentinin direktoru Fərid Vəlizadəyə dayısı

**HİKMƏT HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Hüseynbala Mirələmov və Bəxtiyar Qaraca Real Təhlil İnformasiya Mərkəzinin baş direktoru Mirşahin Ağayevə atası

**MİRDİLAVƏR AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Real TV-nin baş direktoru Mirşahin Ağayevə atası

**MİRDİLAVƏR AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Mətanət A" Şirkətlər Qrupunun Müşahidə Şurasının sədri Elxan Başirov və kollektivi Real TV-nin baş direktoru Mirşahin Ağayevə atası

**MİRDİLAVƏR AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Real Təhlil İnformasiya Mərkəzinin baş direktoru Mirşahin Ağayevə atası

**MİRDİLAVƏR AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Real Təhlil İnformasiya Mərkəzinin baş direktoru Mirşahin Ağayevə atası

**MİRDİLAVƏR AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3520
Sifariş 475

Qiyməti 60 qəpik